# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 20 (3630) Cümə axşamı / 11-17 iyun 2026-cı il Qiyməti 40 qəpik


# Seçkidən sonrakı Ermənistan



**Gözlədiyimiz kimi, Ermənistanda keçirilən seçkini Nikol Paşinyan uddu. Qərb blokuna meylli siyasətçi olan Paşinyan bu prosesdə Rusiyanın açıq-aşkar təzyiqləri və hətta hədələrinə dözməli oldu, nəhayət yürütdüyü siyasət nəticəsində erməni ictimaiyyəti dünyaya və xüsusilə qonşu ölkələrlə açılım xəttini seçdi. İndi çoxları sual verir: Paşinyan qələbəsinin timsalında, Rusiya Ermənistanda uduzdu, yoxsa Qərb qalib gəldi? Diplomatiya və Strateji Araşdırmalar Mərkəzinin (DASAM) sədri Məhmət Gökhan Özçubukçunun qənaətincə, Ermənistanın Baş naziri Nikol Paşinyanın son dövrdə həm seçkilərdə, həm də daxili siyasətdə mövqeyini qoruyub saxlaması ilk baxışdan Qərbin Cənubi Qafqazdakı nüfuzunu artırdığı və Rusiyanın regiondakı təsirinin zəiflədiyi kimi şərh oluna bilər.**

Məsələyə daha geniş geosiyasi çərçivədən yanaşdıqda nə Rusiyanın tamamilə uduzduğunu, nə də Qərbin qəti qələbə qazandığını söyləmək mümkündür. Əslində, ortaya çıxan mənzərə Ermənistanın xarici siyasətdə daha çevik və çoxşaxəli balans axtarışına girdiyini göstərir: "Xüsusilə 2020-ci il Qarabağ müharibəsindən sonra Ermənistan ictimaiyyətində Rusiyaya qarşı ciddi etimad itkisi formalaşdı. Uzun illər ərzində Moskvanı təhlükəsizlik təminatçısı kimi görən erməni siyasi elitaları və cəmiyyətin mühüm bir hissəsi müharibə dövründə və sonrasında Rusiyanın gözlənilən dəstəyi vermədiyi qənaətinə gəldi. Qarabağda baş verən proseslər də bu təsəvvürü daha da gücləndirdi. Buna görə də Paşinyan hakimiyyəti başda Avropa İttifaqı, ABŞ və Fransa olmaqla Qərb aktorları ilə münasibətləri inkişaf etdirməyə yönəldi.

Bununla belə, bu vəziyyət Ermənistanın Rusiyadan tamamilə uzaqlaşdığı anlamına gəlmir. Ermənistan iqtisadiyyatı, enerji infrastrukturu və ticarətinin mühüm bir hissəsi hələ də Rusiya ilə bağlıdır. Bundan əlavə, İrəvan Avrasiya İqtisadi İttifaqındakı üzvlüyünü davam etdirir və



*Azərbaycan baxımından nəzər saldıqda, Paşinyanın son illərdə atdığı bəzi addımların əvvəlki erməni hakimiyyətlərindən fərqləndiyi görünür*

*Rusiyanın Ermənistan üzərindəki təsirinin tamamilə aradan qalxacağını söyləmək mümkün deyil*

Moskva ilə iqtisadi münasibətlərini qorumağa xüsusi diqqət yetirir".

Onun sözlərinə görə, digər tərəfdən, Qərbin də Ermənistanı tam mənada öz geosiyasi oxuna cəlb etdiyini söyləmək çətindir. Avropa İttifaqının müşahidə missiyaları, ABŞ ilə inkişaf edən münasibətlər və Fransanın artan dəstəyi mühüm əhəmiyyət daşısa da, bunlar hələlik Ermənistanın təhlükəsizlik arxitekturasını köklü şəkildə dəyişdirəcək səviyyəyə çatmayıb. NATO üzvlüyü gündəmdə olmadığı kimi, Qərb ölkələrinin Ermənistana birbaşa təhlükəsizlik təminatı verməyə hazır olduqlarını göstərən güclü siqnallar da mövcud deyil. Buna görə də bu gün yaşanan prosesi "Rusiya uduzdu" və ya "Qərb qazandı" şəklində qiymətləndirmək natamam yanaşma olardı. Paşinyanın qələbəsi Azərbaycan və Türkiyənin maraqları prizmasından da maraq doğurur. M.Gökhan bildirir ki, Nikol Paşinyanın siyasi gücünü qoruyub saxlaması Ankara və Bakı baxımından diqqətlə izlənilir. Ermənistanda həm daxili ictimai rəyi idarə edə biləcək, həm də sülh prosesini irəli apara biləcək güclü alternativ siyasi liderlik hələ görünmür:

"Azərbaycan baxımından nəzər saldıqda, Paşinyanın son illərdə atdığı bəzi addımların əvvəlki erməni hakimiyyətlərindən fərqləndiyi görünür. Xüsusilə Azərbaycanın ərazi bütövlüyünün tanınmasına yönəlik açıqlamaları və regional normallaşma mesajları mühüm dəyişiklikdən xəbər verir. Hərçənd Bakının nəzərində bütün problemlər hələ həll olunmayıb, lakin mövcud hakimiyyətin keçmişdəki daha sərt və revizionist yanaşmalardan müəyyən dərəcədə uzaqlaşdığı söylənilə bilər.

Səh. 5

## QURTULUŞ

# Müstəqilliyimizin dönüş anı



*Milli Qurtuluş Günü təkcə tarixi hadisənin ildönümü kimi deyil, həm də müasir Azərbaycan dövlətinin uğurlarının təməlində dayanan dövlətçilik fəlsəfəsinin təntənəsi kimi qiymətləndirilməlidir*

***Milli Qurtuluş Günü - 15 İyun Azərbaycan xalqının müasir tarixində xüsusi əhəmiyyətə malik olan günlərdən biridir. Bu tarix yalnız siyasi təqvimdə qeyd olunan gün deyil, həm də dövlət müstəqilliyinin qorunması, milli birliyin təmin olunması və güclü dövlətçilik ənənələrinin formalaşmasının başlanğıcı kimi qiymətləndirilir. Məhz 15 İyun Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu qoruyub saxlamasına, ölkənin xaos və parçalanma təhlükəsindən çıxmasına şərait yaratmışdı.1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan sonrakı illərdə çox ağır sınaqlarla üzləşdi. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqların işğalı, ölkə daxilində siyasi qarşıdurmalar, iqtisadi böhran və idarəetmə problemləri gənc dövlətin gələcəyini ciddi təhlükə altına qoymuşdu.***

Səh. 2

## MÜSAHİB



**Aydın Mirzəzadə,**
Milli Məclisin deputatı

- Beynəlxalq münasibətlər sistemində yeni və daha dayanıqlı təhlükəsizlik modelinin formalaşdırılması qarşıdakı dövrün ən mühüm vəzifələrindən biri olaraq qalır
- Rəsmi Bakı bu münaqişənin tərəfi deyil və tərəflər arasında qarşıdurmaya qarışmır
- Hazırda problemin qısa müddətdə həllinə dair aydın perspektiv görünməsə də, bu məsələ mütləq şəkildə öz həllini tapmalıdır

Səh. 3

## GÜNÜN FOTOSU...



**Şimali İrlandiyanın paytaxtı Belfastda iğtişaşlar**

## GÜNÜN SİTATI

*"Azərbaycanın azad edilmiş əraziləri innovativ şəhərsalma laboratoriyasına çevrilir"*



**Domeniko Letitsiya,**
italiyalı siyasi analitik

## KARİKATURA



**Revanşistlər seçkidən sonra**

# Büdcəyə yenidən baxılacaq?

**Eldəniz Əmirov,**
iqtisadçı-ekspert

Azərbaycanda dövlət büdcəsinə yenidən baxılması praktikası əsasən ilin ikinci yarısında, yay aylarında həyata keçirilir.

Səh. 5

## STATİSTİKA



**2026-cı ilin yanvar-aprel aylarında Azərbaycandan Fransaya 50 milyon 341,59 min dollar dəyərində mal ixrac olunub. Bu da ötən ilin analoji dövrü ilə müqayisədə 17,6 və ya 47 milyon 478,32 min dollar artım deməkdir.**

Hesabat dövrü ərzində Azərbaycan Fransadan 73 milyon 394,15 min dollar dəyərində mal idxal edib ki, bu da illik müqayisədə 0,23 faiz və ya 167,92 min dollar azdır.



Səh. 6

# Qiymətləndirmə sahəsində narazılıq

XƏBƏR LENTİ

## Gələcək nəsillərin qorunmasına mühüm töhfə



***10 iyun tarixində "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası qanununun layihəsinin ictimai müzakirəsi keçirilib.***

Tədbirdə müvafiq dövlət orqanları (qurumları), media subyektləri və jurnalist təşkilatlarının səlahiyyətli nümayəndələri, həmçinin əlaqəli sahələr üzrə məsul şəxslər, rəqəmsal məzmun yaradıcıları və ekspertlər iştirak ediblər. İctimai müzakirədə çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bildirib ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunda, eləcə də digər aidiyyəti normativ hüquqi aktlarda dəyişikliklər edilməsi barədə qanun layihəsi, uşaqların virtual məkanda təhlükəsizliyinin təmin edilməsinə, bütövlükdə isə milli rəqəmsal ekosistemin hüquqi tənzimlənməsinə yönəlib. O vurğulayıb ki, həm universal etik normalara, həm milli maraqlarımıza, həm də qabaqcıl beynəlxalq hüquqi standartlara tam cavab verən bu dəyişikliklər milli informasiya mühitinin sağlamlaşdırılmasına və gələcək nəsillərin qorunmasına mühüm töhfə verəcək.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsinin Sosial media ilə iş sektorunun müdiri Elmir Vəlizadə çıxışında müasir informasiya mühitində baş verən transformasiyalar, rəqəmsal platformaların cəmiyyət həyatına təsiri və bu sahədə hüquqi tənzimləmələrin əhəmiyyəti barədə fikirlərini bölüşüb. Qeyd olunub ki, informasiya təhlükəsizliyinin təmin edilməsi, vətəndaşların hüquqlarının qorunması və sağlam informasiya mühitinin formalaşdırılması istiqamətində qanunvericiliyin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir.

Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov çıxışında rəqəmsallaşmanın sürətlə genişləndiyi şəraitdə informasiya təhlükəsizliyi məsələlərinin aktuallığından bəhs edib. Bildirilib ki, rəqəmsal mühitdə istifadəçilərin hüquqlarının qorunması, məsuliyyətli davranışın təşviqi və təhlükəsiz informasiya ekosisteminin yaradılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi olduqca vacibdir. Milli Kibertəhlükəsizlik Agentliyinin Əməkdaşlıq və kommunikasiya sektorunun müdiri Həvva Hüseynli təqdimatla çıxış edərək qanun layihəsində nəzərdə tutulan dəyişikliklərin əsas istiqamətləri barədə məlumat verib. Vurğulanıb ki, təklif olunan yeniliklər informasiya mühitində mövcud çağırışlara uyğun hüquqi mexanizmlərin təkmilləşdirilməsinə və rəqəmsal təhlükəsizliyin daha effektiv təmin olunmasına xidmət edir. Ailə, Qadın və Uşaq məsələləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdir müavini Seymur Məmmədov çıxışında rəqəmsal mühitin uşaqlar üçün mühüm inkişaf imkanları yaratmaqla yanaşı, real həyatları üçün qlobal miqyasda ciddi təhlükə və risklərlə də müşayiət olunduğunu bildirib.

Qeyd olunub ki, uşaqların təhlükəsiz informasiya mühitində inkişafının təmin edilməsi, onların zərərli məzmundan müdafiəsi və maarifləndirmə tədbirlərinin genişləndirilməsi xüsusi aktuallıq daşıyır.

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktor müavini Vəfa Yaqublu çıxışında təhsil mühitində informasiya təhlükəsizliyi üzrə biliklərin artırılması, müəllim və şagirdlərdə rəqəmsal risklərə qarşı düzgün davranış vərdişlərinin formalaşdırılmasının, media və informasiya savadlılığının inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, xüsusilə gənclər arasında tənqidi düşüncə bacarıqlarının formalaşdırılması, təhlükəsiz rəqəmsal davranış vərdişlərinin aşılanması və maarifləndirici fəaliyyətlərin genişləndirilməsi bu istiqamətdə mühüm rol oynayır.

Səhiyyə Nazirliyinin Ana və uşaqların sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova çıxışında informasiya mühitinin uşaqların və yeniyetmələrin psixoloji rifahına təsirindən bəhs edib. Vurğulanıb ki, zərərli məzmunun mümkün təsirlərinin azaldılması, profilaktik tədbirlərin gücləndirilməsi və valideynlərin məlumatlandırılması sağlam inkişaf mühitinin formalaşdırılması baxımından vacibdir. Ədliyyə Nazirliyinin Qanunvericilik baş idarəsinin Sosial normativ aktlar idarəsinin rəisi Aytən Məmmədova çıxışında qanun layihəsinin hüquqi aspektlərinə toxunub. Qeyd olunub ki, təklif edilən dəyişikliklər hüquqi tənzimləmələrin təkmilləşdirilməsinə, tətbiq mexanizmlərinin daha səmərəli qurulmasına və müasir informasiya mühitində yaranan çağırışlara adekvat cavab verilməsinə yönəlib.

İctimai müzakirə zamanı iştirakçılar tərəfindən qanun layihəsində nəzərdə tutulan dəyişikliklər ətrafında geniş və fəal fikir mübadiləsi aparılıb, müxtəlif yanaşmalar və mövqelər səsləndirilib, təkliflər irəli sürülüb. Tədbir çərçivəsində layihənin ayrı-ayrı müddəaları üzrə aktiv diskussiyalar keçirilib, iştirakçıları maraqlandıran məsələlər ətrafında ətraflı mülahizələr təqdim olunub, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində konstruktiv yanaşmalar irəli sürülüb. Eyni zamanda, dəyişikliklərin mümkün təsirləri, tətbiqi mexanizmləri və gözlənilən nəticələri ilə bağlı baxışlar bölüşülərək peşəkar və səmərəli dialoq mühiti formalaşıb.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "Zaman" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -1500
"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Müstəqilliyimizin dönüş anı

***Milli Qurtuluş Günü - 15 İyun Azərbaycan xalqının müasir tarixində xüsusi əhəmiyyətə malik olan günlərdən biridir. Bu tarix yalnız siyasi təqvimdə qeyd olunan gün deyil, həm də dövlət müstəqilliyinin qorunması, milli birliyin təmin olunması və güclü dövlətçilik ənənələrinin formalaşmasının başlanğıcı kimi qiymətləndirilir. Məhz 15 İyun Azərbaycanın müstəqil dövlət kimi mövcudluğunu qoruyub saxlamasına, ölkənin xaos və parçalanma təhlükəsindən çıxmasına şərait yaratmışdı.***



## Qurtuluş

1991-ci ildə dövlət müstəqilliyini bərpa edən Azərbaycan sonrakı illərdə çox ağır sınaqlarla üzləşdi. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqların işğalı, ölkə daxilində siyasi qarşıdurmalar, iqtisadi böhran və idarəetmə problemləri gənc dövlətin gələcəyini ciddi təhlükə altına qoymuşdu. Xüsusilə 1993-cü ilin yay aylarında vəziyyət kritik həddə çatmışdı. Hakimiyyət böhranı dərinləşir, müxtəlif silahlı qruplar arasında qarşıdurmalar güclənir, mərkəzi hakimiyyət isə proseslərə tam nəzarət etmək imkanını itirirdi. Həmin dövrdə ölkədə separatizm meyllərinin güclənməsi, vətəndaş qarşıdurması təhlükəsinin yaranması və dövlət institutlarının zəifləməsi Azərbaycanın parçalanması riskini artırmışdı. Cəmiyyətdə ümidsizlik və narahatlıq hökm sürür, insanlar yaranmış böhrandan çıxış yolu axtarırdılar. Belə bir mürəkkəb şəraitdə xalqın diqqəti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevə yönəlmişdi.

Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti Heydər Əliyevin dövlət idarəçiliyi təcrübəsinə, siyasi uzaqgörənliyinə və böhranlı vəziyyətlərdə düzgün qərarlar qəbul etmək bacarığına inanırdı. Məhz buna görə də onun hakimiyyətə qayıdışı cəmiyyət tərəfindən ölkənin xilas yolu kimi qəbul edilirdi. Xalqın tələbi ilə Heydər Əliyevin Bakıya dəvət olunması və iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilməsi sonradan Milli Qurtuluş Günü kimi tarixə düşdü.

Siyasi analitiklərin fikrincə, 15 İyun hadisələri sadəcə hakimiyyət dəyişikliyi deyildi. Bu tarix Azərbaycan dövlətçiliyinin xilası, milli birliyin bərpası və gələcək inkişaf strategiyasının əsasının qoyulması baxımından mühüm dönüş nöqtəsi oldu. Heydər Əliyevin siyasi rəhbərliyə qayıdışından sonra ölkədə sabitliyin təmin edilməsi istiqamətində ardıcıl addımlar atıldı. Dövlət institutlarının fəaliyyəti bərpa olundu, qanunçuluğun möhkəmləndirilməsi istiqamətində tədbirlər həyata keçirildi və vətəndaş qarşıdurması təhlükəsinin qarşısı alındı.

Qısa müddət ərzində ölkədə ictimai-siyasi sabitliyin bərpası iqtisadi inkişaf üçün də əlverişli şərait yaratdı. Azərbaycanın xarici siyasət kursu müəyyənləşdirildi, beynəlxalq əlaqələrin genişləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Sonrakı dövrdə həyata keçirilən neft strategiyası, xarici investisiyaların cəlb edilməsi və beynəlxalq enerji layihələrinin reallaşdırılması ölkənin iqtisadi potensialının güclənməsinə səbəb oldu. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq iqtisadi münasibətlər sisteminə inteqrasiyasında mühüm mərhələ hesab olunur. Bu müqavilə yalnız iqtisadi layihə deyil, həm də Azərbaycanın siyasi və geosiyasi mövqelərinin möhkəmlənməsinə xidmət edən strateji qərar idi. Məhz sabitliyin təmin olunması nəticəsində ölkə xarici tərəfdaşlar üçün etibarlı əməkdaş kimi qəbul olunmağa başladı.

Milli Qurtuluşdan sonra başlanan dövlət quruculuğu prosesi sonrakı illərdə daha da inkişaf etdirildi. Azərbaycanın müasir dövlətçilik modeli formalaşdı, hüquqi dövlət və vətəndaş cəmiyyəti institutlarının inkişafı istiqamətində mühüm addımlar atıldı. Ordunun gücləndirilməsi, milli təhlükəsizlik sisteminin təkmilləşdirilməsi və iqtisadi potensialın artırılması ölkənin dayanıqlı inkişafını təmin edən əsas amillərdən biri oldu. Azərbaycan regionun aparıcı dövlətlərindən biri kimi çıxış edir. Ölkənin beynəlxalq nüfuzu artıb, iqtisadi imkanları genişlənib və milli təhlükəsizlik sistemi daha da möhkəmlənib. Xüsusilə ərazi bütövlüyünün və suverenliyin tam bərpası ilə nəticələnən tarixi nailiyyətlər dövlətçilik tariximizin mühüm mərhələsinə çevrilib. Bu uğurların təməlində isə 1993-cü ildə əldə olunan siyasi sabitlik və dövlət idarəçiliyində yaradılan möhkəm əsaslar dayanır. Məhz buna görə də 15 İyun təkcə keçmişə aid tarixi hadisə deyil. Azərbaycanın müasir inkişaf modelinin, dövlətçilik ənənələrinin və milli birliyinin simvolu kimi qiymətləndirilir. Milli Qurtuluş Günü xalqın öz dövlətini qorumaq əzminin, siyasi müdrikliyin və milli həmrəyliyin təntənəsi olaraq Azərbaycan tarixində xüsusi yer tutur.

> *1993-cü ilin İyun hadisələri Azərbaycanın müasir tarixində taleyüklü və yaddaqalan hadisələrdən biri idi*

> *Milli Qurtuluş Gününün əsas mahiyyəti dövlətçilik ənənələrinin qorunmasında özünü göstərir*

■ **Siyasi şərhçi Aydın Quliyev bildirir ki, 1993-cü ilin İyun hadisələri ilə Azərbaycanın gəlib-çatdığı mərhələni müqayisə etdikdə, sanki bir-birindən tamamilə fərqli iki dövr göz önündə canlanır. Bu iki dövr arasında çox mühüm bir bağlılıq mövcuddur.** 1993-cü ilin İyun hadisələri Azərbaycanın müasir tarixində taleyüklü və yadda qalan hadisələrdən biri idi. Həmin dövrdə müxtəlif səbəblərdən ölkə daxilində ciddi siyasi gərginlik hökm sürürdü. Hakimiyyətdə olan qüvvələr dövlətə tam nəzarəti təmin etməkdə çətinlik çəkirdilər. Ölkədə idarəetmə böhranı yaşanır, sabitlik pozulur, cəmiyyətdə isə gələcəklə bağlı ciddi narahatlıq hiss olunurdu.

Belə bir şəraitdə ictimaiyyətin diqqəti Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əliyevə yönəlmişdi. Azərbaycan vətəndaşlarının böyük əksəriyyəti onun hakimiyyətə qayıdışına ümidlə baxırdı. İnsanlar inanırdılar ki, Heydər Əliyev ölkəni mövcud siyasi böhrandan çıxarmağa, sabitliyi bərpa etməyə qadirdir. Bu inam təsadüfi deyildi. Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində zəngin təcrübəsi, mürəkkəb vəziyyətlərdə qərar qəbul etmək bacarığı və siyasi nüfuzu cəmiyyət üçün əsas dayaq nöqtələrindən biri hesab olunurdu. Doğrudan da, Heydər Əliyevin Bakıya gəlişindən sonra ölkədə vəziyyət tədricən sabitləşməyə başladı.

Cəmiyyətdə gələcəyə inam artdı, insanlar dövlətçiliyin qorunacağına və mövcud böhranın aradan qaldırılacağına əminlik hiss etməyə başladılar. Xalqın Heydər Əliyevə göstərdiyi dəstək və onun siyasi təcrübəsi qısa müddətdə öz nəticəsini verdi. Azərbaycan sabitliyi, inkişafı və gələcəyə hesablanmış dövlət modeli ilə seçilirsə, bunun başlanğıc nöqtəsini 1993-cü ilin iyun hadisələrində axtarmaq lazımdır. Məhz həmin hadisələrdən sonra ölkədə sabitləşmə prosesi başladı, dövlət idarəçiliyi möhkəmləndi və Azərbaycanın inkişaf yolunun əsası formalaşdırıldı.

■ **Siyasi şərhçi Əli Oruclu bildirib ki, 15 İyun Azərbaycan tarixində dövlətin və xalqın maraqlarının qorunduğu gün kimi qiymətləndirilir. Bu tarix göstərdi ki, xalqın iradəsi və milli birlik ən çətin məqamlarda belə dövlətçiliyi xilas edə bilər.**

"Tarixçilər hesab edirlər ki, həmin dövrdə qəbul edilən qərarlar Azərbaycanın gələcək inkişaf trayektoriyasını müəyyənləşdirib. Sonrakı illərdə ölkədə siyasi sabitliyin möhkəmləndirilməsi, iqtisadi artımın təmin edilməsi, ordu quruculuğunun gücləndirilməsi və beynəlxalq nüfuzun artırılması istiqamətində mühüm addımlar atılıb.

Milli Qurtuluş Günü yalnız keçmişə ehtiram deyil, həm də müasir Azərbaycanın qazandığı uğurların təməlində dayanan dövlətçilik fəlsəfəsinin təntənəsi kimi qiymətləndirilir.

15 İyun xalqın birlik və həmrəyliyinin, dövlətçilik ənənələrinə sadiqliyinin və milli maraqların hər şeydən üstün tutulmasının rəmzi olaraq Azərbaycan tarixində əbədi yer tutub".

■ **Tarixçi alim Qasım Hacıyev bildirib ki, Milli Qurtuluşdan sonra Azərbaycanda dövlət quruculuğu prosesinin yeni mərhələsi başladı.**

Sonrakı illərdə ölkədə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, iqtisadi islahatların həyata keçirilməsi, bazar münasibətlərinin formalaşdırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində mühüm addımlar atıldı. Eyni zamanda, dövlətin müdafiə qabiliyyətinin artırılması, nizami ordu quruculuğunun gücləndirilməsi və milli təhlükəsizlik sisteminin formalaşdırılması prioritet vəzifələr sırasında yer aldı. Qasım Hacıyev qeyd edir ki, həmin dövrdə əsası qoyulan siyasi kurs Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin möhkəmlənməsinə də mühüm təsir göstərib. Ölkənin regional və qlobal layihələrdə iştirakının genişlənməsi, enerji və nəqliyyat sahələrində həyata keçirilən strateji təşəbbüslər Azərbaycanın nüfuzunun artmasına və etibarlı tərəfdaş kimi tanınmasına şərait yaradıb.

Tarixçinin qənaətinə görə, bu gün Milli Qurtuluş Günü təkcə tarixi hadisənin ildönümü kimi deyil, həm də müasir Azərbaycan dövlətinin uğurlarının təməlində dayanan dövlətçilik fəlsəfəsinin təntənəsi kimi qiymətləndirilməlidir. 1993-cü ilin iyununda başlanan yeni siyasi mərhələ Azərbaycanın müstəqilliyinin qorunub saxlanılmasına, dövlət institutlarının möhkəmlənməsinə və ölkənin regionun aparıcı dövlətlərindən birinə çevrilməsinə imkan yaradıb.

Alim vurğulayıb ki, Azərbaycanın güclü dövlətə çevrilməsi, milli maraqlarını qətiyyətlə müdafiə etməsi və regionda söz sahibinə çevrilməsi məhz həmin dövrdə formalaşdırılan siyasi sabitlik və strateji inkişaf kursunun məntiqi nəticəsidir. Bu baxımdan Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin xilası ilə yanaşı, ölkənin uzunmüddətli inkişaf konsepsiyasının başlanğıc nöqtəsi kimi də böyük tarixi əhəmiyyət daşıyır.

■ **"Səs" qəzetinin baş redaktoru, siyasi şərhçi Bəhruz Quliyev bildirib ki, 15 İyun Azərbaycan xalqının taleyində, sadəcə, təqvim günü deyil, dövlətçiliyimizin xilası, milli birliyin bərpası və müasir Azərbaycanın təməlinin qoyulduğu tarixi dönüş nöqtəsidir.** Ekspert qeyd edir ki, 1992-1993-cü illərdə ölkədə hökm sürən siyasi xaos, idarəçilik böhranı, hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün səriştəsiz fəaliyyəti Azərbaycanı faktiki olaraq parçalanma və vətəndaş qarşıdurması təhlükəsi ilə üz-üzə qoymuşdu. Dövlət institutları iflic vəziyyətinə düşmüş, iqtisadiyyat çökmüş, orduda pərakəndəlik yaranmış, torpaqlarımızın işğalı davam edirdi. Belə bir ağır və taleyüklü məqamda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın xilası oldu. "15 İyun 1993-cü ildə Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ölkəmizin siyasi tarixində yeni mərhələnin başlanğıcını qoydu.

> *Milli Qurtuluş Günü təkcə tarixi hadisənin ildönümü kimi deyil, həm də müasir Azərbaycan dövlətinin uğurlarının təməlində dayanan dövlətçilik fəlsəfəsinin təntənəsi kimi qiymətləndirilməlidir*

> *15 İyun Azərbaycan dövlətçiliyinin xilası və tarixi Zəfərə aparan yolun başlanğıcıdır*

Məhz buna görə də həmin gün xalqımız tərəfindən Milli Qurtuluş Günü kimi qəbul edilir. Heydər Əliyev özünün böyük siyasi təcrübəsi, qətiyyəti və uzaqgörənliyi ilə dövlətçiliyin məhvinin qarşısını aldı, Azərbaycanı vətəndaş müharibəsindən xilas etdi və milli həmrəyliyi təmin etdi. O dövrdə ən vacib amillərdən biri Heydər Əliyev və xalq birliyinin formalaşması oldu. Bu birlik dövlətçilik ideyasını milli maraqların fövqünə qaldırdı və Azərbaycanın gələcək inkişaf strategiyasının əsasını təşkil etdi.

Ulu Öndərin rəhbərliyi altında hüquqi, demokratik dövlət quruculuğu prosesi başlandı, Konstitusiya qəbul edildi, insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində mühüm addımlar atıldı. Eyni zamanda vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması, azad medianın inkişafı, siyasi plüralizmin genişləndirilməsi üçün zəruri şərait yaradıldı. Azərbaycanın iqtisadi dirçəlişini təmin edən taleyüklü qərarlar qəbul edildi, neft strategiyası həyata keçirildi və ölkə beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi möhkəmləndi. 2003-cü ildən etibarən Prezident İlham Əliyev tərəfindən Heydər Əliyev siyasi kursunun müasir dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirilməsi Azərbaycanın inkişafında yeni mərhələ yaratdı. Güclü iqtisadiyyatın qurulması, müasir ordunun formalaşdırılması, regional liderlik mövqeyinin möhkəmləndirilməsi və beynəlxalq nüfuzun artması nəticəsində Azərbaycan öz tarixinin ən qüdrətli dövrünə qədəm qoydu. Bu siyasətin ən möhtəşəm nəticəsi 2020-ci ildə əldə edilən tarixi Zəfər və ölkəmizin ərazi bütövlüyünün böyük hissəsinin bərpası oldu. 2023-cü ildə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycanın dövlət suverenliyi bütün ərazilərində tam təmin edildi. Beləliklə, bir əsrdən artıq müddətdən sonra Azərbaycan ilk dəfə olaraq öz sərhədləri daxilində tam suverenliyini təmin etmiş, bütöv və güclü dövlət kimi yeni inkişaf mərhələsinə qədəm qoymuşdur.

Bu gün "Qurtuluşdan qələbəyə" ifadəsi sadəcə siyasi şüar deyil, tarixi reallıqdır. Əgər 15 İyun 1993-cü ildə dövlətçiliyimiz xilas edilməsəydi, Azərbaycanın bugünkü gücündən, sabitliyindən, beynəlxalq nüfuzundan və tarixi qələbələrindən danışmaq mümkün olmazdı. Milli Qurtuluş Günü Azərbaycan xalqının müdrik seçiminin, Heydər Əliyev siyasi irsinin və dövlətçilik ənənələrinin təntənəsinin simvoludur. Bu yolun məntiqi nəticəsi isə suveren, qüdrətli, bütöv və gələcəyə inamla addımlayan Azərbaycandır", - B.Quliyev bildirir.

✍ *Tahirə Qafarlı*

# Amerikalılar Yaxın Şərq gündəliyindən beziblər

***İranla ABŞ arasında xeyli vaxtdır danışıqlar gedir. Təbii, bəzi məsələrdə tərəflər razılaşa bilmirdilər, amma yenə də Tramp ümid verirdi ki, yaxınlarda razılaşma imzalanacaq. İki gün öncə isə Livana qarşı hücumlarına cavab olaraq, İran İsrailə ballistik raketlərlə zərbə endirdi. Əvvəl ABŞ prosesə loyal yanaşsa da, hətta Netanyahunu səbrli olmağa səsləsə də, sonda adətini pozmayaraq, qəfil İrana hücum etdi. Nə baş verdi, niyə sakit danışıqlar yenidən qarşılıqlı hücumlarla əvəzləndi, İran niyə İsrailə hücum etdi? Gürcüstanlı iranşünas politoloq Vasili Papava Hafta.az-a müsahibəsində bütün bu məqamlara aydınlıq gətirməyə çalışıb:***



**Vasili Papava,**
Gürcüstanlı iranşünas politoloq

## Müsahib

- Tehran bu addımı bölgədəki mövqeyinə təzyiq göstərməyəcəyini açıq şəkildə nümayiş etdirmək üçün atdı. İranlılar Livanda "Hizbullah"a qarşı İsrailin dağıdıcı zərbələrini öz təhlükəsizliklərinə birbaşa təhdid kimi qəbul etdilər. Belə bir vəziyyətdə susmaq həm proksi qüvvələr arasında, həm də ölkənin öz daxilində etibarın tamamilə itirilməsi demək olardı.

Məhdud raket zərbəsi Tehranın daha böyük regional müharibəyə girmədən simmetrik şəkildə cavab verməsi üçün yol oldu. Bu, açıq siqnaldır: İranın maraqlarını nəzərə almadan Yaxın Şərqdə heç bir razılaşma mümkün deyil. Amerikalılarla danışıqlar həmişəki kimi davam edirdi, lakin İsrailin onların təsir infrastrukturunu ardıcıl olaraq məhv etməyə davam etdiyini bilən İran rəhbərliyi güclü bəyanat vermək qərarına gəldi. Bundan əlavə, İran daxilində iqtisadi çətinliklər və sosial narazılıq artır, buna görə də xarici sərtlik ənənəvi olaraq əhalini rejim ətrafında toplamağa kömək edib. Tehran üçün bu, kortəbii emosional partlayış deyil, tanış taktikadır - kənarda tarazlaşmaq, dişlərini göstərmək, lakin tammiqyaslı münaqişənin qarşısını almaq üçün eskalasiyanı diqqətlə ölçmək. İran rəhbərliyinin uzunmüddətli perspektivində bu hücum tamamilə praqmatik görünür.

***- ABŞ bu dəfə anındaca İsraili açıq müdafiə etməkdə həvəsli görünmədi və tərəfləri atəşkəsi bərpa etməyə səslədi. ABŞ İsrailin çağırışı ilə bölgəyə gələrək müharibəyə başladığı halda, indi niyə belə etdi?***

- Vaşinqton əvvəlcə İsrailin xahişi ilə bölgəyə qüvvələrini yerləşdirsə də, yeni eskalasiya mərhələsində qəti şəkildə maraqlı deyil. Ağ ev artıq böyük maliyyə və hərbi resurslar sərf edərək bu böhranda dərin bataqlığa düşüb. Amerikalıların hazırda əsas vəzifəsi münaqişənin tammiqyaslı regional müharibəyə çevrilməsinin qarşısını almaqdır ki, bu da qaçılmaz olaraq qlobal enerji bazarında şoka səbəb olacaq. Donald Trampın komandası, görünür, ABŞ-nin əks-hücumda birbaşa iştirakının yalnız oda yanacaq tökəcəyini və nəticədə kövrək danışıqlar prosesini pozacağını başa düşür. Vaşinqton əvvəllər güc tətbiq etməyə hazır olduğunu nümayiş etdirmişdi, lakin bu mərhələdə sərt diplomatiyaya və pərdəarxası təzyiqə güvənir, təmkinli olmağa çağırır.

Bundan əlavə, ABŞ daxilində yeni hərbi sərgüzəştlərə qarşı ictimai konsensus həmişəkindən daha güclüdür - seçicilər sadəcə Yaxın Şərq gündəliyindən beziblər. İsrail, şübhəsiz, qeyd-şərtsiz dəstək gözləyirdi, lakin ABŞ administrasiyası indi vəziyyətin nəzarətdən çıxmasının qarşısını almağa çalışaraq sərt moderator rolunu öz üzərinə götürməyə məcburdur. Pentaqon yaxşı bilir ki, birbaşa müdaxilə ABŞ-ın bölgədəki bazalarını və Fars körfəzindəki müttəfiqlərini İranpərəst qruplar üçün qanuni hədəflərə çevirəcək ki, bu da ciddi risk yaradır.

***- Son hücumlardan əvvəl də, sonra da, Tramp israrla qeyd edir ki, yaxın günlərdə İranla sülh sazişini imzalayacaqlar. İran isə bildirir ki, Amerika onun tələblərini qəbul etməsə razılaşma mümkün deyil. Sizcə nəyi gözləyək: İranın dediyi olacaq, yoxsa Amerikanın?***

- Tramp üçün bu, şəxsi siyasi nüfuz və mübahisəsiz sülhməramlı imicinin yaradılması məsələsidir. Sazişin cəmi iki-üç gün ərzində bağlana biləcəyi barədə davamlı açıqlamalar, təşəbbüsün tamamilə Vaşinqtonun əlində olduğunu nümayiş etdirmək üçün hazırlanmış praqmatik psixoloji təzyiq vasitəsidir. Bu arada, İran son dərəcə sərt danışıqlar mövqeyi tutur, əsas təhlükəsizlik və suverenlik tələbləri tam həll olunmayana qədər sənədi imzalamayacağını açıq şəkildə nümayiş etdirir və Tehran əsas sanksiyalar qaldırılmadan hər hansı güzəşti təslim olmaq kimi qəbul edir.

Əgər tezliklə razılaşma əldə olunarsa, açıq şəkildə uduzan olmayacaq - bu, iki praqmatik oyunçu arasında çətin güzəşt olacaq və hər bir oyunçu əsas fayda əldə edəcək. Tramp diplomatik qələbə şəklində güclü kozır qazanacaq, bağlanmış Hörmüz boğazını açmaqla qlobal neft bazarını dərhal sabitləşdirəcək və münaqişəyə son qoymaq vədini yerinə yetirməklə seçicilərini sakitləşdirəcək. Netanyahunun güclü narazılığına və Beyruta hücumlarla danışıqları pozmaq cəhdlərinə baxmayaraq, İsrail də bundan faydalanacaq, çünki müqavilə ona çox ehtiyac duyulan fasilə və Livandakı Hizbullah-ın fəaliyyətinin dondurulmasını təmin edir.

Eyni zamanda, İran alçaldıcı güzəştlərə getməyə və ya strateji mövqelərindən imtinaya məcbur edilməyəcək. Tehran nüvə infrastrukturunun sökülməsinə icazə verməyəcək, yalnız qlobal enerji bazarına tam qayıtmaq müqabilində MAQATE-nin nəzarəti altında nüvə proqramına müvəqqəti texniki məhdudiyyətlərə razı olacaq. Oman körfəzindəki limanların dəniz blokadasının dərhal qaldırılması və milyardlarla dollarlıq xarici

> *İran tərəfi Trampın hər hansı vədinə son dərəcə ehtiyatla yanaşır*

aktivlərin qaytarılması İran üçün böyük maliyyə qələbəsi olacaq və nəticədə, İranın mütləq məğlub tərəf kimi görünməyəcəyi klassik qarşılıqlı faydalı razılaşma görəcəyik.

***- Müşahidələrimə görə, İran son olaraq Bəhreyn və Küveytdəki Amerika bzalarını vursa da, BƏƏ və Səudiyyə Ərazilərinə hücum etmədi. Sizcə, Tehranın məqsədi nədir, ərəb ölkələrində özünə qarşı birliyi parçalamaq, yoxsa BƏƏ və Səudiyyə torpaqlarında vurulmalı Amerika bazası yoxdur?***

- Tehran bu kampaniyada ciddi siyasi məqsədəuyğunluğa əsaslanaraq həddindən artıq hesablama və seçmə ilə hərəkət edir. Bəhreyn və Küveytdəki Amerika hədəflərinə endirilən zərbələr İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) bölgədə ümumi müharibəyə çevrilmədən yaxın ərazidəki Pentaqon infrastrukturunu effektiv şəkildə hədəfə almaq qabiliyyətini nümayiş etdirir. BƏƏ və ya Səudiyyə Ərəbistanında Amerika bazalarının olmadığı fərziyyəsi səhvdir: ən böyük və ən strateji əhəmiyyətli ABŞ obyektləri orada yerləşir. Əmirliklərdə bu, ABŞ Hərbi Hava Qüvvələrinin 380-ci ekspedisiya qanadının yerləşdiyi əl-Dəfra hava bazasıdır, Səudiyyə Ərəbistanında isə bura ər-Riyad yaxınlığında yaxşı müdafiə olunan Şahzadə Sultan Hava Bazası və ABŞ qüvvələri üçün açıq olan Taifdəki Kral Fəhd hava bazası daxildir. Üstəlik, bu obyektlər İran zərbələrinin hədəfi olub - Səudiyyə Ərəbistanının Şahzadə Sultan Hava Bazası və BƏƏ-nin əl-Dəfra hava bazası artıq pilotsuz təyyarə və raket hücumları dalğaları alıb. İranın seçmə yanaşması başqa bir şeylə motivasiya olunur: kövrək İran əleyhinə koalisiyaya ara vermək və vahid sünni-İsrail cəbhəsinin formalaşmasını pozmaq cəhdi. Küveyt və ya Bəhreyndə Amerika bazalarına zərbə endirməklə İran kiçik Körfəz monarxiyalarına müttəfiqlərinin zəifliyini nümayiş etdirir və onları Pentaqonun qalası qalmaq və ya neytral qalmaq arasında seçim etməyə məcbur edir.

İqtisadi amil də burada əsas rol oynayır. Səudiyyə Ərəbistanı və BƏƏ qlobal enerji bazarının tarazlığını idarə edən nəhənglərdir. Onlarla tammiqyaslı münaqişə avtomatik olaraq Hörmüz boğazını bağlayacaq və tranziti iflic edəcək, Tehranın sanksiyalardan sağ çıxmaq üçün etibar etdiyi kölgəli İran neft ixrac sxemlərini tamamilə məhv edəcək.

***- Trampın İsrailin baş nazirinə qarşı sərt mövqe sərgilədiyinə dair xəbərlər yayılıb. Nə baş verir, Netanyahu Trampı bezdirib, yoxsa Tramp Amerika daxilində ciddi təzyiq yaşayır?***

- Tramp Netanyahu ilə münasibətlərində, strateji məqsədlərindəki dərin uçurumdan qaynaqlanan, misli görünməmiş dərəcədə sərt tondan istifadə edib. Növbəti gərginləşmə mərhələsindən sonra İsraili qeyd-şərtsiz dəstəkləmək əvəzinə, Amerika prezidenti əsasən öz siyasi maraqlarını qoruyan praqmatik hakim mövqeyini tutub. Şəxsi və mətbuat qarşısında Tramp açıq şəkildə yeganə qərar qəbul edən şəxs olduğunu və Netanyahunun, sadəcə, Vaşinqtonun tələblərinə tabe olmaqdan başqa çarəsi qalmayacağını bildirib. Bu qıcıqlanmanın əsas səbəbi İsrail rəhbərliyinin hərəkətlərinin Trampın əsas xarici siyasət layihəsini - İranla genişmiqyaslı müqavilənin imzalanmasını təhlükə altına qoymasıdır. Ağ Ev diplomatik qələbə qazanmağa və gərginliyi azaltmağa çalışarkən, İsrail ordusu Livanda Hizbullah-a qarşı sərt hücumlar etməyə davam edir və İran bunu İsrailə yaxın olan əsas forpostuna birbaşa hücum kimi qəbul edir. Tramp üçün bu münaqişənin uzanması artıq xeyli siyasi kapital sərf etmiş danışıqları pozmaq deməkdir. Buna görə də, Netanyahunun böyük müharibəyə aparan hər hansı müstəqil addımı Vaşinqtonda sabotaj kimi qəbul edilir.

Daxili amillər Trampa yalnız ABŞ-nin makroiqtisadi sabitliyi prizmasından təzyiq göstərir, burada qlobal neft bazarındakı vəziyyət əsas rol oynayır. Hörmüz boğazı ətrafındakı uzun sürən böhran təkcə vətəndaşların cüzdanlarını deyil, həm də bütün ABŞ maliyyə sisteminin sabitliyini və ən böyük sənaye və bank konqlomeratlarının maraqlarını təhdid edir. Ağ Ev üçün enerji qiymətlərinin nəzarətsiz artımının qarşısını almaq vacibdir, çünki bu, inflyasiyanı dərhal sürətləndirəcək və qlobal qeyri-sabitlik fonunda ABŞ dollarına zərər verəcək. İsrailin İran infrastrukturuna yeni kütləvi hücumları Vaşinqtonun bütün iqtisadi strategiyasını pozacaq və fond birjalarında xaosa səbəb olacaq.

***- ABŞ-İran razılaşması, sizcə, yaxın vaxtlarda, məsələn, bu ay imzalana bilərmi və imzalanarsa, İran bu sazişdən nə əldə edəcək?***

- Ağ evin xarici nikbinliyi tərəflərin mövqelərində dərin və davamlı bir çıxılmazlığı gizlətdiyindən, bu ay imzalanan zəmanətli bir razılaşmadan danışmaq mümkün deyil. ABŞ və İslam Respublikası arasındakı danışıqlar prosesi həmişə çətin, asimmetrik bir sövdələşmə şəklində olur və bu zaman Tehran heç vaxt Amerika şərtlərini kor-koranə qəbul etmir. İran rəhbərliyi Trampın təcili siyasi qələbə üçün tələsdiyini yaxşı başa düşür və buna görə də Vaşinqtonun zəifliyindən istifadə edərək, sanksiyaların aradan qaldırılması və təhlükəsizlik zəmanətləri üzrə maksimum güzəştlər əldə etmək üçün danışıqları qəsdən uzadır.

İran bu cür çoxsəviyyəli danışıqların aparılmasında geniş tarixi təcrübəyə malikdir və xarici təzyiqə qarşı ciddi daxili müdafiə qurub. İran tərəfi Trampın gözlənilməz davranışını yaxşı bilir və onun hər hansı vədinə son dərəcə ehtiyatla yanaşırlar. Son zamanlar baş verən genişmiqyaslı eskalasiya və keçmiş liderin ölümü nəzərə alınmaqla, Tehranın yeni hakim elitası İranın əsas iqtisadi tələbləri qanuni olaraq təsdiqlənməyincə qısamüddətli mənfəət üçün sənəd imzalamaqdan daha da çəkinir. Tehran nüvə proqramı ilə bağlı texniki güzəştlərə getməyə hazırdır, lakin bu, yalnız sanksiyalar rejiminin real, maddi şəkildə ləğvi və regional statusunun tanınması müqabilində mümkündür.

Əgər bu praqmatik razılaşma sonda yekunlaşarsa, İran daxili vəziyyətini sabitləşdirməyə kömək edəcək bir sıra vacib güzəştlər alacaq. İlk növbədə, bu, Vaşinqtonun Oman körfəzindəki İran limanlarına qarşı blokadasını ləğv etməsi ilə Tehrana xammalın qanuni ixracını dərhal bərpa etməyə imkan verən dəniz blokadasının dərhal qaldırılmasını əhatə edir. Bundan əlavə, razılaşma dağılan milli iqtisadiyyatın xilası üçün vacib olan xarici hesablardakı milyardlarla dollarlıq İran aktivlərinin dondurulmasının aradan qaldırılması şəklində maliyyə oksigeni təmin edir. Tehran həmçinin beynəlxalq ticarət üçün qanuni kanallar qazanacaq və bu da rejimə daxili sosial gərginliyi əhəmiyyətli dərəcədə azaltmağa və yeni hökumətin mövqeyini gücləndirməyə imkan verəcək.

✍ ***Vüsal Tağıbəyli***

## Müsahib

***Yaxın Şərqdə İran-İsrail qarşıdurmasının yenidən kəskinləşməsi, İranın nüvə proqramı ətrafında artan gərginlik və Rusiya-Ukrayna müharibəsinin davam etməsi qlobal təhlükəsizlik gündəmini müəyyənləşdirən əsas amillər sırasındadır. Beynəlxalq münasibətlər sistemində yeni güc balanslarının formalaşdığı, regional və qlobal risklərin artdığı bir şəraitdə Azərbaycanın milli təhlükəsizlik maraqları, xarici siyasət prioritetləri və regional proseslərdəki rolu xüsusi aktuallıq kəsb edir. Müsahibimiz millət vəkili Aydın Mirzəzadədir.***



**Aydın Mirzəzadə,**
Milli Məclisin deputatı

# Rəsmi Bakı bu münaqişəyə qarışmır

***- İran-İsrail qarşıdurmasının yenidən kəskinləşməsi Cənubi Qafqazın təhlükəsizlik mühitinə və Azərbaycanın milli maraqlarına hansı təsirləri göstərə bilər?***

- İran-İsrail münaqişəsinin çox uzun və mürəkkəb tarixi var və təəssüf ki, bu qarşıdurmanın yaxın perspektivdə sona çatacağına dair aydın əlamətlər görünmür. Vaxtaşırı beynəlxalq ictimaiyyət və ayrı-ayrı dövlətlər bu iki ölkə arasında mövcud gərginliyin aradan qaldırılması üçün təşəbbüslərlə çıxış etsələr də, hələlik ciddi nəticələr əldə olunmayıb.

Təəssüf ki, zaman-zaman tərəflərin bir-birinin ərazisinə raket zərbələri endirməsi müasir dövrün ən ciddi təhlükəsizlik problemlərindən biri kimi qalmaqdadır. Düzdür, bu qarşıdurmanın Cənubi Qafqaza və Azərbaycana birbaşa təsiri müşahidə olunmasa da, bütövlükdə dünya ictimaiyyətini narahat edən mühüm məsələlərdən biridir. Dövlətimizin həm İran, həm də İsraillə yaxşı münasibətləri mövcuddur. Biz istərdik ki, bu iki ölkə arasında mövcud olan gərginlik və qarşıdurma birdəfəlik aradan qalxsın, regionda və dünyada sülh və sabitlik daha da möhkəmlənsin. Ölkəmiz də öz növbəsində sülhə, dialoqa və qarşılıqlı anlaşmaya xidmət edən təşəbbüslərə dəstək verməyə və bu istiqamətdə öz töhfəsini göstərməyə çalışacaq.

***- Azərbaycan həm İran, həm İsrail, həm də Qərb ölkələri ilə əməkdaşlıq edən dövlət kimi mövcud geosiyasi şəraitdə hansı diplomatik xətti davam etdirməlidir?***

- Rəsmi Bakı bu münaqişənin tərəfi deyil və tərəflər arasında qarşıdurmaya qarışmır. Ölkəmiz hər zaman bu kimi mübahisələrin və münaqişələrin hərbi yollarla deyil, diplomatik vasitələr və dialoq yolu ilə həllinin vacibliyini vurğulayır.

***- Azərbaycanın mövqeyi ondan ibarətdir ki, İran-İsrail qarşıdurması mümkün qədər qısa müddətdə siyasi və diplomatik yollarla həll edilməli, regionda gərginliyin daha da artmasına yol verilməməlidir. Hər iki tərəf də dövlətimizin sülhə və dialoqa əsaslanan yanaşmasını, eləcə də diplomatik səylərlə münaqişənin həllinə töhfə vermək istəyini görür və bilir.***

Təəssüf ki, bu problemin həlli, ilk növbədə, İran və İsrailin öz siyasi iradəsindən və qarşılıqlı addımlarından asılıdır. Beynəlxalq ictimaiyyət və ayrı-ayrı dövlətlər müəyyən vasitəçilik təşəbbüsləri göstərə bilsələr də, davamlı və uzunmüddətli həllin əldə olunması üçün əsas məsuliyyət məhz münaqişə tərəflərinin üzərinə düşür.

***- İranın nüvə proqramı ətrafında gərginliyin artması regionda yeni hərbi və siyasi risklər yarada bilərmi? Bu vəziyyət Azərbaycan üçün hansı çağırışları formalaşdırır?***

- İranın nüvə proqramı artıq təkcə regionun deyil, bütövlükdə dünyanın əsas problemlərindən birinə çevrilib. Bu məsələ, təxminən, 50 ilə yaxındır ki, beynəlxalq gündəmdə öz aktuallığını qoruyub saxlayır. İran öz nüvə proqramının dinc məqsədlərə xidmət etdiyini və enerji, elm və texnologiya sahələrinin inkişafına yönəldiyini bəyan edir. Qərb ölkələri və ABŞ isə hesab edirlər ki, İran gələcəkdə nüvə silahına malik ola bilər və bu, onun regiondakı proseslərə nüvə dövləti kimi təsir imkanlarını artırar. Bu səbəbdən tərəflər arasında uzun illərdir aparılan danışıqlar hələ də yekun nəticə verməyib. Təəssüf ki, son dövrlərdə vəziyyət daha da mürəkkəbləşib və proses bəzi hallarda diplomatik müstəvidən çıxaraq hərbi qarşıdurma elementləri ilə müşayiət olunmağa başlayıb.

Ötən ilin iyun ayında İsrailin İran ərazilərinə zərbələr endirməsi, daha sonra İran və İsrail arasında qarşılıqlı hücumların baş verməsi, eləcə də bu ilin mart ayında ABŞ-İsrail koalisiyası ilə İran arasında hərbi gərginliyin artması vəziyyətin nə qədər təhlükəli olduğunu göstərir. Bütün bunlar beynəlxalq təhlükəsizlik baxımından ciddi narahatlıq doğuran məsələlər olaraq qalır.

Hazırda problemin qısa müddətdə həllinə dair aydın perspektiv görünməsə də, bu məsələ mütləq şəkildə öz həllini tapmalıdır. Problemin davam etməsi qlobal sabitliyə, iqtisadi inkişafa, beynəlxalq ticarət əlaqələrinə və enerji bazarlarına mənfi təsir göstərir. Ən acınacaqlı məqam isə ondan ibarətdir ki, münaqişələrin əsas qurbanları dinc insanlar olur. Normalda iqtisadi inkişaf və quruculuq işlərinə yönəldilə biləcək maliyyə və insan resursları silahlanmaya və hərbi əməliyyatlara sərf edilir.

Azərbaycan isə hər zaman olduğu kimi, bu münaqişənin sülh və dialoq yolu ilə, mümkün qədər tez aradan qaldırılmasının tərəfdarıdır. Ölkəmiz gərginliyin azaldılması, diplomatik danışıqların davam etdirilməsi və qarşıdurmanın daha da dərinləşməsinin qarşısının alınması istiqamətində çağırışlar edir və hesab edir ki, problemlərin yeganə dayanıqlı həlli məhz siyasi-diplomatik müstəvidə mümkündür.

***- Rusiya-Ukrayna müharibəsinin uzanması Cənubi Qafqazda qüvvələr nisbətinə və regionun təhlükəsizlik arxitekturasına necə təsir göstərir?***

- Rusiya-Ukrayna müharibəsinin Cənubi Qafqaza birbaşa və ciddi təsiri müşahidə olunmasa da, region ölkələrinin hər üçünün həm Rusiya, həm də Ukrayna ilə müxtəlif sahələrdə əlaqələri mövcuddur. Bu baxımdan, iki böyük dövlət arasında davam edən müharibə istər-istəməz digər ölkələrlə iqtisadi, ticarət və humanitar münasibətlərə də müəyyən təsirlər göstərir.

Cənubi Qafqaz ölkələri üçün əsas məsələ regionda sabitliyin qorunması və mövcud əməkdaşlıq əlaqələrinin davam etdirilməsidir. Müharibə regionun təhlükəsizlik arxitekturasını birbaşa dəyişdirməsə də, qlobal siyasi və iqtisadi proseslərə təsir göstərən mühüm amillərdən biri olaraq qalır.

***- Dünyanın müxtəlif bölgələrində münaqişələrin artdığı bir dövrdə Azərbaycan öz təhlükəsizlik və xarici siyasət strategiyasını hansı istiqamətlər üzrə gücləndirməlidir?***

- Dünyanın müxtəlif bölgələrində münaqişələr və qarşıdurmalar davam edir. Belə bir problem altı il bundan əvvəl Azərbaycan üçün də mövcud idi. Ermənistan torpaqlarımızın bir hissəsini, təxminən, 30 il ərzində işğal altında saxlamışdı. Dövlətimizin həyata keçirdiyi düşünülmüş daxili və xarici siyasət regionda sülh və əməkdaşlıq mühitinin formalaşmasına mühüm töhfə verir. Ölkəmizin apardığı siyasət və münaqişənin həlli istiqamətində nümayiş etdirdiyi yanaşma bir çox dövlətlər üçün nümunə ola bilər. Dövlətimiz öz ərazi bütövlüyünü və suverenliyini təmin etməklə yanaşı, regionda uzunmüddətli sülhün bərqərar olması üçün də ardıcıl səylər göstərir. Bununla belə, hər bir münaqişənin və problemin özünəməxsus xüsusiyyətləri, fərqli səbəbləri və həll yolları var. Ona görə də hər bir məsələyə konkret şərait və reallıqlar nəzərə alınmaqla yanaşmaq lazımdır. Azərbaycan üzləşdiyi problemi həll etməyə nail olub və bu gün dünyanın müxtəlif bölgələrində davam edən münaqişələrin də sülh yolu ilə aradan qaldırılmasını arzulayır. Rəsmi Bakı hesab edir ki, davamlı sabitlik, inkişaf və əməkdaşlıq yalnız qarşılıqlı hörmətə, beynəlxalq hüquqa və dialoqa əsaslanan yanaşma ilə mümkün ola bilər.

> *Beynəlxalq münasibətlər sistemində yeni və daha dayanıqlı təhlükəsizlik modelinin formalaşdırılması qarşıdakı dövrün ən mühüm vəzifələrindən biri olaraq qalır*

***- Hazırkı qlobal proseslər fonunda yeni geosiyasi nizamın formalaşdığını söyləmək mümkündürmü? Bu yeni düzəndə ölkəmizin regional liderlik və vasitəçilik imkanlarını necə qiymətləndirirsiniz?***

- İkinci Dünya müharibəsindən sonra formalaşdırılmış beynəlxalq sülh və təhlükəsizlik sistemi artıq əvvəlki effektivliyi ilə fəaliyyət göstərə bilmir. Dünyanın müxtəlif bölgələrində baş verən münaqişələr, qarşıdurmalar və beynəlxalq hüquq normalarının pozulması mövcud mexanizmlərin bir sıra hallarda yetərli olmadığını göstərir.

Beynəlxalq hüququn tətbiqi və beynəlxalq təşkilatların qərarlarının icrası ilə bağlı problemlər də bunu təsdiqləyən amillər sırasındadır. Bu baxımdan, qlobal təhlükəsizlik arxitekturasının müasir çağırışlara uyğun şəkildə yenilənməsinə və daha effektiv mexanizmlərin formalaşdırılmasına ehtiyac olduğu barədə fikirlər getdikcə daha çox səsləndirilir. Təəssüf ki, bu istiqamətdə aparılan müzakirələr və təşəbbüslər hələlik konkret və uzunmüddətli nəticələr verməyib. Ona görə də beynəlxalq münasibətlər sistemində yeni və daha dayanıqlı təhlükəsizlik modelinin formalaşdırılması qarşıdakı dövrün ən mühüm vəzifələrindən biri olaraq qalır.

✍ ***Tahirə Qafarlı***

# Səhralaşma və Quraqlıqla Mübarizə Günü

## Layihə

*Torpaq insan həyatının, iqtisadi inkişafın və ərzaq təhlükəsizliyinin əsas dayaqlarından biridir. Son onilliklərdə dünyada müşahidə olunan iqlim dəyişiklikləri, su ehtiyatlarının azalması, əhali artımı və təbii resurslardan qeyri-səmərəli istifadə torpaqların deqradasiyasını sürətləndirərək səhralaşma və quraqlıq problemini qlobal təhlükəyə çevirib. Məhz bu səbəbdən, hər il iyunun 17-si bütün dünyada Səhralaşma və Quraqlıqla Mübarizə Günü kimi qeyd olunur. Bu tarix yalnız təqvimdəki növbəti beynəlxalq gün deyil, həm də bəşəriyyətin qarşısında duran ən ciddi ekoloji çağırışlardan birinə diqqət çəkmək üçün mühüm platformadır.*



### Qlobal problemin beynəlxalq gündəliyə çıxarılması

**1992-ci ildə Braziliyanın Rio-de-Janeyro şəhərində keçirilən Yer Sammiti zamanı səhralaşma problemi ilk dəfə qlobal ekoloji təhlükələrdən biri kimi beynəlxalq gündəliyə daxil edilib.**

Bunun ardınca 17 iyun 1994-cü ildə Birləşmiş Millətlər Təşkilatının Səhralaşma ilə Mübarizə Konvensiyası qəbul olunub. Həmin sənədin imzalanması ilə beynəlxalq ictimaiyyət torpaq deqradasiyasının və quraqlığın qarşısının alınmasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib.

Bir il sonra BMT Baş Assambleyası 17 iyun tarixini Dünya Səhralaşma və Quraqlıqla Mübarizə Günü elan edib. Hər il həmin tarixdə müxtəlif ölkələrdə konfranslar, forumlar, maarifləndirmə tədbirləri və ekoloji kampaniyalar təşkil edilir. Məqsəd dövlətləri, özəl sektoru və vətəndaş cəmiyyətini torpaqların mühafizəsi istiqamətində daha fəal fəaliyyətə təşviq etməkdir. Bu günün əhəmiyyəti ildən-ilə daha da artır. Alimlərin fikrincə, iqlim dəyişikliklərinin təsirləri dərinləşdikcə torpaq və su resursları üzərində təzyiq də artır və bu proses gələcəkdə qlobal ərzaq təhlükəsizliyinə ciddi təhdid yarada bilər.

### Quraqlıq - səssiz fəlakət

**Quraqlıq digər təbii fəlakətlərdən fərqli olaraq qəfil baş vermir. Daşqın, zəlzələ və ya qasırğa bir neçə saat və ya gün ərzində öz təsirini göstərdiyi halda, quraqlıq aylarla, bəzən isə illərlə davam edən prosesdir. Bu səbəbdən quraqlıq çox zaman "səssiz fəlakət" adlandırılır.**

Quraqlıq yağıntıların normadan aşağı olması nəticəsində yaranır. Lakin müasir dövrdə qlobal istiləşmə onun təsirlərini daha da gücləndirir. Temperaturun yüksəlməsi torpaqdan və su hövzələrindən buxarlanmanı artırır, nəticədə su ehtiyatları daha sürətlə azalır. Quraqlıq, ilk növbədə, kənd təsərrüfatına zərbə vurur.

Torpaqda rütubətin azalması məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Daha sonra içməli su ehtiyatları azalır, enerji istehsalı çətinləşir, sənaye və xidmət sektorları da bu prosesdən təsirlənməyə başlayır. Bəzi regionlarda quraqlıq nəticəsində milyonlarla insanın yaşayış yeri dəyişməyə məcbur olduğu hallar qeydə alınıb. Buna görə də ekspertlər quraqlığı təkcə ekoloji deyil, həm də sosial və iqtisadi təhlükəsizlik problemi hesab edirlər.

### İqlim dəyişiklikləri və torpaq deqradasiyası

**Son onilliklərdə qlobal temperaturun artması səhralaşma prosesinin sürətlənməsində əsas amillərdən biri hesab olunur. Alimlərin fikrincə, planetdə orta temperaturun yüksəlməsi yağıntı rejimində ciddi dəyişikliklər yaradır.**

Bəzi regionlarda yağışların miqdarı azalır, bəzi bölgələrdə isə intensiv, lakin qısa müddətli yağıntılar müşahidə olunur. Belə hallarda su torpağa hopmaq əvəzinə sel şəklində axaraq münbit qatı yuyub aparır. Digər tərəfdən, torpaq deqradasiyası özü də iqlim dəyişikliklərini sürətləndirən amillərdən biridir. Sağlam torpaq atmosferdəki karbon qazını özündə saxlayır. Deqradasiyaya uğramış torpaqlar isə bu funksiyanı yerinə yetirə bilmir. Beləliklə, iqlim dəyişiklikləri səhralaşmanı, səhralaşma isə iqlim dəyişikliklərini gücləndirən qapalı bir dövrə yaradır.

Yeri gəlmişkən, beynəlxalq təşkilatların hesabatlarına əsasən, dünya üzrə milyardlarla hektar torpaq müxtəlif səviyyələrdə deqradasiyaya məruz qalıb. Hər il milyonlarla hektar məhsuldar ərazi öz təsərrüfat əhəmiyyətini itirir. Ən həssas regionlar sırasında Afrika qitəsinin Sahel zonası, Mərkəzi Asiya, Yaxın Şərq, Avstraliyanın bəzi hissələri və Latın Amerikasının quraq bölgələri göstərilir. Əhalinin artımı da problemi kəskinləşdirir. BMT-nin proqnozlarına görə, yaxın onilliklərdə dünya əhalisinin artması ərzaq istehsalına olan tələbatı əhəmiyyətli dərəcədə yüksəldəcək. Bu isə torpaq ehtiyatlarının qorunmasını strateji məsələyə çevirir.

### Azərbaycanın qarşılaşdığı çağırışlar

**Azərbaycan coğrafi mövqeyinə və iqlim xüsusiyyətlərinə görə səhralaşma riskinin yüksək olduğu ölkələr sırasındadır. Ölkə ərazisinin əhəmiyyətli hissəsi quraq və yarımquraq zonalarda yerləşir.**

Abşeron yarımadası, Ceyrançöl, Mil-Muğan düzü, Şirvan düzənliyi, Qarabağ və Naxçıvanın bəzi ərazilərində torpaq deqradasiyası riskləri daha çox müşahidə olunur. Son illərdə ölkədə orta temperaturun artması, quraq dövrlərin uzanması və su ehtiyatlarının azalması bu sahədə narahatlıqları artırıb. Xüsusilə kənd təsərrüfatında suya tələbatın yüksəlməsi su ehtiyatlarının daha səmərəli idarə olunmasını vacib edir. Ekspertlərin fikrincə, Azərbaycanda səhralaşmaya səbəb olan əsas amillər sırasında otlaqlardan həddindən artıq istifadə, bəzi ərazilərdə meşə örtüyünün azalması, torpaq eroziyası, şoranlaşma və qeyri-səmərəli suvarma üsulları dayanır.

### Çıxış yolu nədən ibarətdir?

**Mütəxəssislər hesab edirlər ki, səhralaşma ilə mübarizədə əsas məqsəd yalnız torpağın qorunması deyil, həm də onun bərpasıdır. Bu istiqamətdə meşəsalma proqramlarının genişləndirilməsi, qoruyucu yaşıllıq zolaqlarının yaradılması, müasir suvarma sistemlərinin tətbiqi, torpaq monitorinqinin gücləndirilməsi və kənd təsərrüfatında innovativ texnologiyaların istifadəsi xüsusi əhəmiyyət daşıyır.**

Eyni zamanda, su ehtiyatlarının inteqrasiyalı idarə olunması, yağış sularının toplanması, şoranlaşmanın qarşısının alınması və torpaq eroziyası ilə mübarizə tədbirləri də prioritet istiqamətlər sırasındadır. Bununla yanaşı, ekoloji təhsil və maarifləndirmə də mühüm rol oynayır. İnsanların təbiətə münasibəti dəyişmədən ekoloji problemlərin tam həllindən danışmaq mümkün deyil.

■ **Mövzu ilə bağlı ekoloq Rövşən Abbasov bildirib ki, son yüz ildə insanın təbiətə müdaxiləsinin sürətlənməsi bu prosesi daha da dərinləşdirib.**

Onun sözlərinə görə, XX əsrin əvvəllərindən etibarən sənayeləşmə, urbanizasiya və təbii resurslardan intensiv istifadə nəticəsində təbii ekosistemlər ciddi təzyiq altında qalıb. İqlim dəyişiklikləri ilə yanaşı şəhərləşmənin sürətlənməsi də toxunulmamış təbii ərazilərin getdikcə azalmasına səbəb olub.

"Bir çox bölgələrdə temperaturun yüksəlməsi və yağıntıların azalması bitki örtüyünün zəifləməsinə gətirib çıxarır. Nəticədə bitkilər quraqlığa və yanğınlara qarşı daha həssas vəziyyətə düşür. Əvvəlki dövrlərlə müqayisədə otlaqların, xüsusilə də dağ otlaqlarının dayanıqlılığı zəifləyib. Torpaq əvvəlki kimi möhkəm olmadığından intensiv otarılma prosesləri səhralaşmanı sürətləndirən amillərdən birinə çevrilir", - deyə ekoloq qeyd edib. R.Abbasov vurğulayıb ki, bu tendensiyalar Azərbaycanda da açıq şəkildə müşahidə olunur. Onun sözlərinə görə, vaxtilə zəngin və məhsuldar otlaq sahələri ilə seçilən Qobustan ərazisində son illərdə iqlim dəyişikliklərinin təsiri daha qabarıq hiss edilir. Yağıntıların azalması və quraq dövrlərin uzanması nəticəsində bölgədə bitki örtüyünün sıxlığı xeyli aşağı düşüb.

Ekoloq səhralaşmanın digər təhlükəli nəticələrindən biri kimi meşə yanğınlarının artmasını göstərib. O bildirib ki, havaların daha isti və quraq keçməsi təbii yanğın risklərini artırır, insan fəaliyyəti isə bu prosesi daha da sürətləndirir.

"Bu gün səhralaşmaya yalnız iqlim amillərinin nəticəsi kimi baxmaq düzgün olmazdı. Burada insan faktorunun da ciddi rolu var. Quraq hava şəraiti ilə yanaşı, torpaqlardan düzgün istifadə olunmaması, həddindən artıq otarılma və digər antropogen təsirlər bir sıra ərazilərdə deqradasiya proseslərini sürətləndirir. Vaxtilə zəngin bitki örtüyünə malik olan səhələr tədricən quraq landşaftlara çevrilir. Xüsusilə Qobustan, Abşeron, Ceyrançöl və Naxçıvan kimi ərazilərdə səhralaşmanın intensivliyi daha qabarıq şəkildə hiss olunur", - deyə o bildirib.

Mövcud vəziyyətdən çıxış yollarına da toxunan R. Abbasov hesab edir ki, səhralaşmanın qarşısının alınması üçün ilk növbədə otlaq sahələrinin idarə olunması təkmilləşdirilməlidir. Onun fikrincə, dövri otarılma sisteminin tətbiqi torpaqların bərpasına və bitki örtüyünün yenilənməsinə imkan yarada bilər. Ekoloq, həmçinin yaşıllıq zolaqlarının genişləndirilməsinin, quraqlığa davamlı bitki növlərinin əkilməsinin və genişmiqyaslı meşəsalma tədbirlərinin həyata keçirilməsinin vacibliyini vurğulayıb. O qeyd edib ki, bu sahədə dünyanın müxtəlif ölkələrinin, xüsusilə də Çinin uğurlu təcrübəsi öyrənilə bilər.

"Əkilən ağacların və bitkilərin yerli iqlim şəraitinə uyğun seçilməsi mühüm əhəmiyyət daşıyır. Quraqlığa davamlı növlərin istifadəsi, yaşıllıq sahələrinin artırılması və torpaqların qorunmasına yönələn tədbirlər səhralaşma prosesinin qarşısının alınmasında mühüm rol oynaya bilər", - deyə R. Abbasov əlavə edib.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Ekologiya və ətraf mühitin mühafizəsi

> "Son 100 ildə insanın təbiətə müdaxiləsinin sürətlənməsi bu prosesi daha da dərinləşdirib

***✍ Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

# Azərbaycanla Yaponiya arasında əməkdaşlıq dərinləşir

***İyunun 10-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə yaponiyalı həmkarı Toşimitsu Motegi arasında görüş keçirilib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən verilən məlumata görə, Yaponiyada keçirilən görüşdə nazirlər 1992-ci ildə diplomatik münasibətlərin qurulmasından ötən 30 ildən artıq müddətdə ikitərəfli münasibətlərin inkişafını alqışlayıb, yüksəksəviyyəli səfərlər və siyasi məsləhətləşmələr də daxil olmaqla fəal və səmərəli siyasi dialoqun vacibliyini təsdiqləyiblər.***



Hər iki nazir bu səfərin iki ölkə arasında diplomatik münasibətlərin daha da möhkəmləndirilməsi üçün imkan yaratdığını vurğulayaraq, diplomatiya və iqtisadiyyat da daxil olmaqla bir sıra sahələr üzrə əməkdaşlığı dərinləşdirmək niyyətlərini təsdiqləyiblər. Azərbaycan tərəfi Yaponiyanın Rəsmi İnkişaf Yardımını (RİY) təqdir etdiyini və Yaponiya ilə əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu ifadə edib. Yaponiya tərəfi Azərbaycanın sabitliyinin və rifahının bütövlükdə Qafqaz regionunda sülhün təmin olunması baxımından əhəmiyyətini qəbul edib və hər iki tərəf iqtisadi sahədə əməkdaşlığın daha da gücləndirilməsi barədə razılığa gəlib.

Yaponiya tərəfi Azərbaycan tərəfinin turizmin təşviqi, iqtisadi, humanitar və mədəni əlaqələrin daha da genişləndirilməsi məqsədilə Yaponiya vətəndaşları üçün bir il müddətinə birtərəfli qaydada vizasız rejim tətbiq etmək qərarını alqışlayıb. Tərəflər vətəndaşlarının qarşılıqlı səyahətlərini asanlaşdırmağa davam edəcəklərini təsdiqləyiblər. Tərəflər iki ölkə arasında ticarət və investisiya əlaqələrinin daha da genişləndirilməsi məqsədilə 2025-ci ilin sentyabr ayında keçirilmiş Azərbaycan-Yaponiya Birgə İqtisadi Komitəsinin 12-ci iclasını məmnunluqla qeyd edib və növbəti iclasın yaxın zamanda keçirilməsinin zəruriliyini təsdiqləyiblər. Yaponiya-Azərbaycan İnvestisiya Sazişi üzrə 2019-cu ilin fevral ayında başlamış danışıqlarda indiyədək əldə edilmiş irəliləyiş məmnunluqla qeyd edilib və onun yaxın zamanda bağlanması məqsədilə danışıqların sürətləndirilməsi barədə razılığa gəlinib.

Tərəflər dekarbonizasiya sahəsində əməkdaşlığın təşviqi məqsədilə Birgə Kreditləşdirmə Mexanizmindən (BKM) istifadə olunmasına və BKM Birgə Komitəsinin ilk iclasının yaxın zamanda keçirilməsinə razılıqlarını ifadə ediblər. Həmçinin regional və daha geniş əlaqəliliyin gücləndirilməsinə yönəlmiş Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə əməkdaşlığın vacibliyi barədə razılığa gəliblər.

Bundan əlavə, tərəflər yapon şirkətlərinin iştirak etdiyi "Azəri-Çıraq-Günəşli" neft-qaz yataqlarının işlənməsi və Bakı-Tbilisi-Ceyhan boru kəməri üzrə iki ölkə arasında uzunmüddətli və sıx əməkdaşlıq münasibətlərinin mövcudluğu faktını yüksək qiymətləndiriblər. Bu, tərəflər arasında səmərəli qarşılıqlı əməkdaşlığın əhəmiyyətli faydalarını və müsbət nəticələrini nümayiş etdirir. Eyni zamanda, tərəflər mövcud beynəlxalq şəraitdə sabit enerji təchizatı baxımından Azərbaycanın mühüm rolunu bir daha təsdiqləyiblər. Azərbaycanmənşəli xam neftin sabit təchizatının qorunması da daxil olmaqla, enerji təhlükəsizliyi sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsi niyyətlərini ifadə ediblər, dəniz təhlükəsizliyinin vacibliyini vurğulayıblar. Habelə tərəflər iqtisadi dayanıqlılığa, iqtisadi təhlükəsizliyə və daha geniş beynəlxalq mühitə təsir göstərən son inkişaflarla bağlı fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran məsələlər üzrə dialoqun və əməkdaşlığın davam etdirilməsinin vacibliyini bir daha təsdiqləyiblər.

Tərəflər beynəlxalq platformalarda, o cümlədən beynəlxalq təşkilatlarda seçkilər ilə bağlı ikitərəfli əməkdaşlığın davam etdirilməsini təsdiqləyib, həmçinin daimi, eləcə də qeyri-daimi üzvlük kateqoriyalarının genişləndirilməsini nəzərdə tutan BMT Təhlükəsizlik Şurasının islahatının tezliklə həyata keçirilməsi istiqamətində birgə fəaliyyət göstərmək əzmlərini ifadə ediblər.

## XƏBƏRİNİZ OLSUN...



■ Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi tərəfindən bu ilin yanvar-may ayları ərzində 19,4 min şəxsə əlillik təyin edilib. Onlardan 8,6 min şəxsə ilkin, 10,8 min şəxsə isə təkrar əlillik təyinatı aparılıb.

■ "Azərbaycan Dəmir Yolları" QSC (ADY) yüksək sərnişin tələbatını qarşılamaq məqsədilə Bakı-Tbilisi-Bakı qatarı ilə sərnişindaşıma imkanlarını genişləndirir. Tətil və məzuniyyətlər dövrü olan yay mövsümündə qatarla səyahətə tələbatın daha da artması ilə 11 iyundan etibarən Bakıdan və 12 iyundan Tbilisidən hərəkət edən qatarlara əlavə vaqon qoşularaq daha çox sərnişinin daşınması təmin ediləcək.

■ Xəzərdə zəlzələ olub. Bu barədə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin Zəlzələlərin tədqiqatı bürosundan məlumat verilib. 3 maqnitudalı yeraltı təkan yerli vaxtla 08:55-də, 48 km dərinlikdə baş verib.



■ İran xarici işlər naziri Abbas Əraqçi türkiyəli həmkarı Hakan Fidanla telefon danışığı aparıb. Bu barədə İran Xarici İşlər Nazirliyi məlumat yayıb. Məlumata görə, Abbas Əraqçi Hakan Fidanla ötən gecə ABŞ-ın İranın cənubuna hücumundan sonra regionda yaranmış son vəziyyəti müzakirə edib.

■ Norveç 2026-cı ildə Ukrayna üçün dəniz pilotsuz aparatlarının hazırlanması və satın alınmasına 1,2 milyard kron (120 milyon dollardan çox) vəsait ayıracaq. Bu barədə Norveç hökumətinin yaydığı məlumatda deyilir.

■ Xaçmaz rayonunda uzunqulağın dişlədiyi 70 yaşlı kişi ölüb. Hadisə rayonun Yergüc kəndində baş verib. Kənd sakini, 1956-cı il təvəllüdlü Murad Əsfəndiyarovu bir həftə əvvəl kənd ərazisində uzunqulaq dişləyib. Bir müddət ev şəraitində müalicə alan şəxsin vəfat etdiyi bildirilir.



■ Pakistan ordusu Əfqanıstanın Kunar, Xost və Paktika vilayətlərinə zərbələr endirib. Bu barədə Əfqanıstan hakimiyyəti məlumat yayıb. Məlumata görə, aviazərbələr nəticəsində 13 nəfər həlak olub, 14 nəfər yaralanıb. Əfqanıstan hökumətinin sözçüsü Zəbiullah Mücahid bildirib ki, mülki sakinlərin yaşadığı evlər atəşə tutulub.

■ Azərbaycanda milli səviyyədə mərkəzləşdirilmiş anti-frod ekosisteminin yaradılması istiqamətində işlər aparılır. Bunu Azərbaycan Mərkəzi Bankının Ödəniş Sistemləri və Məhsulların İnkişafı Departamentinin baş mütəxəssisi Elvin Cüvarov deyib. Onun sözlərinə görə, əsas məqsəd ölkə səviyyəsində mərkəzləşdirilmiş anti-frod ekosisteminin formalaşdırılmasıdır.

# Büdcəyə yenidən baxılacaq?

***Q**lobal enerji bazarlarında müşahidə olunan son bahalaşma fonunda neftin qiyməti yenidən diqqət mərkəzinə çevrilib. Yaxın Şərqdə artan geosiyasi gərginlik, enerji təchizatına dair risklər və bazarlardakı qeyri-müəyyənlik neftin dünya qiymətlərinə təsir göstərən əsas amillər sırasındadır. Belə bir şəraitdə Azərbaycanda da mühüm bir sual aktuallaşır: neftin qiymətinin yüksəlməsi dövlət büdcəsinə yenidən baxılmasına səbəb ola bilərmi? Qeyd edək ki, Azərbaycan iqtisadiyyatı son illərdə qeyri-neft sektorunun inkişafı istiqamətində mühüm addımlar atsa da, enerji gəlirləri hələ də dövlət maliyyəsinin əsas dayaqlarından biri olaraq qalır.*



## İqtisadiyyat

Dövlət büdcəsinin mühüm hissəsi Dövlət Neft Fondundan transfertlər hesabına formalaşdığı üçün neft bazarında baş verən dəyişikliklər ölkənin fiskal imkanlarına birbaşa təsir göstərir. Məhz buna görə də neftin büdcədə nəzərdə tutulan qiymətdən daha yüksək səviyyədə ticarət olunması hökumətin maliyyə imkanlarını genişləndirə bilir. Lakin ekspertlər hesab edirlər ki, burada əsas məsələ qiymət artımının özü deyil, onun nə qədər davamlı olmasıdır. Çünki qısamüddətli bahalaşma adətən büdcə siyasətində ciddi dəyişikliklərə səbəb olmur. Əgər yüksək qiymətlər uzun müddət qorunub saxlanılarsa, o zaman ilin ikinci yarısında dövlət büdcəsinə yenidən baxılması məsələsi aktuallaşa bilər. Əslində, Azərbaycanda büdcəyə il ərzində dəyişiklik edilməsi yeni təcrübə deyil. Son illərdə dövlət gəlirlərinin proqnozları üstələməsi və yeni maliyyə ehtiyaclarının yaranması hallarında büdcənin gəlir və xərc hissələrinə yenidən baxılıb. Bu baxımdan, neft gəlirlərinin artması da hökumət üçün əlavə maliyyə manevr imkanları yarada bilər. Bəs əlavə vəsaitlər hansı istiqamətlərə yönəldilə bilər?

İlk növbədə sosial sahənin ön plana çıxacağı ehtimal edilir. Son illər hökumətin sosialyönümlü siyasətə üstünlük verməsi nəzərə alınarsa, əlavə gəlirlərin əməkhaqqı, pensiya və sosial müavinətlərin artırılması üçün istifadə olunması mümkün görünür. Əhalinin sosial rifahının yaxşılaşdırılması dövlət xərclərinin əsas prioritetlərindən biri olaraq qalır. Digər mühüm istiqamət infrastruktur layihələri ola bilər. Regionların sosial-iqtisadi inkişafı, yol və nəqliyyat layihələri, kommunal infrastrukturun yenilənməsi, su və enerji təminatı sahəsində proqramların maliyyələşdirilməsi əlavə vəsait tələb edən istiqamətlər sırasındadır. Xüsusilə işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri dövlət büdcəsinin əsas xərc istiqamətlərindən biri olaraq qalır və əlavə maliyyə resursları bu prosesin sürətlənməsinə imkan verə bilər. Müdafiə və təhlükəsizlik xərcləri də diqqətdən kənarda qalmır. Regionda davam edən geosiyasi proseslər fonunda bu sahə dövlətin strateji prioritetləri sırasında yer almaqda davam edir.

*“Azərbaycanda dövlət büdcəsinə yenidən baxılması praktikası əsasən ilin ikinci yarısında, yay aylarında həyata keçirilir*

Bu səbəbdən əlavə büdcə imkanlarının bir hissəsinin təhlükəsizlik və müdafiə potensialının gücləndirilməsinə yönəldilməsi də istisna edilmir. Bununla yanaşı, təhsil, səhiyyə, rəqəmsal transformasiya və innovasiya layihələri də əlavə maliyyələşmə əldə edə biləcək sahələr hesab olunur. Son illərdə insan kapitalının inkişafı ilə bağlı hədəflər hökumətin strateji sənədlərində xüsusi yer tutur və əlavə gəlirlər bu istiqamətdə yeni imkanlar yarada bilər.

■ **Mövzu ilə bağlı iqtisadçı-ekspert Eldəniz Əmirov bildirib ki, Azərbaycanda dövlət büdcəsinə yenidən baxılması praktikası əsasən ilin ikinci yarısında, yay aylarında həyata keçirilir. Onun sözlərinə görə, büdcə gəlirlərinin icra vəziyyəti, iqtisadi göstəricilərdəki dəyişikliklər və dövlətin prioritet istiqamətləri nəzərə alınaraq həm gəlir, həm də xərc proqnozlarına düzəlişlər edilir.**

Ekspert qeyd edib ki, 2020-ci il pandemiya dövrü istisna olmaqla, son illərdə dövlət büdcəsinə edilən dəyişikliklər əsasən artımlarla müşayiət olunub. Bu baxımdan, 2026-cı ilin dövlət büdcəsi göstəricilərinə də yenidən baxılacağı və əlavə dəyişikliklərin ediləcəyi gözlənilir. E.Əmirovun fikrincə, əlavə maliyyə imkanları yarandığı halda, vəsaitlərin əsas istiqamətlərindən biri Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq layihələri olacaq. Həmin ərazilərdə infrastrukturun yaradılması, yaşayış məntəqələrinin yenidən qurulması və iqtisadi fəaliyyətin genişləndirilməsi üçün ayrılan vəsaitlərin artırılması mümkündür.

Bununla yanaşı, sosial sahənin də diqqət mərkəzində olacağı gözlənilir. Ekspert hesab edir ki, pensiya və sosial müavinətlərin indeksləşdirilməsi, əməkhaqlarının artırılması kimi məsələlərə yenidən baxılması ehtimalı var. Onun sözlərinə görə, müdafiə və təhlükəsizlik xərcləri də əlavə vəsaitlərin yönəldilə biləcəyi əsas sahələr sırasındadır. Regionda davam edən geosiyasi proseslər və təhlükəsizlik çağırışları fonunda büdcədə əlavə imkanlar yaranarsa, həmin vəsaitlərin bir hissəsinin müdafiə potensialının gücləndirilməsinə yönəldilməsi real görünür. Ekspert əlavə edib ki, dövlət investisiya layihələrinin maliyyələşdirilməsinin genişləndirilməsi, strateji infrastruktur layihələrinin icrasının sürətləndirilməsi və iqtisadi aktivliyin dəstəklənməsi məqsədilə də büdcə xərclərində artımlar nəzərdə tutula bilər. Onun fikrincə, bütün bunlar 2026-cı il üzrə büdcə göstəricilərinin yenidən baxılması zamanı əsas müzakirə mövzularından olacaq.

✍ *Sevinc*

## Aktual

◂ əvvəli 1-ci səhifədə

# Seçkidən sonrakı Ermənistan

Türkiyə baxımından isə məsələ yalnız Ermənistanla münasibətlərin normallaşdırılması deyil. Əsas məsələ Cənubi Qafqazda davamlı sabitliyin təmin edilməsi və regional bağlantısallığın inkişaf etdirilməsidir. Ankaranın uzun müddətdir dəstəklədiyi nəqliyyat dəhlizləri, iqtisadi inteqrasiya və regional əməkdaşlıq hədəfləri Ermənistanın daha praqmatik xəttə yönəlməsi ilə daha tətbiqolunan xarakter qazana bilər. Xüsusilə Orta Dəhlizin artan strateji əhəmiyyəti və Bakı-Tbilisi-Qars xəttinin yüksələn rolu regional sabitliyin dəyərini daha da artırır.

Bu səbəbdən, Paşinyanın siyasi uğurunu qiymətləndirərkən əsas meyar onun Qərbə yaxınlığı deyil, regional sülh və normallaşma prosesinə nə dərəcədə töhfə verəcəyidir. Əgər İrəvan sülh sazişi, sərhədlərin açılması və regional inteqrasiya istiqamətindəki iradəsini davam etdirərsə, Paşinyanın hakimiyyətdə qalması həm Türkiyə, həm də Azərbaycan baxımından müsbət nəticələr doğura bilər”. Xatırladaq ki, Paşinyan seçkidən əvvəl də, sonra da dəfələrlə Moskva, hətta birbaşa Putin tərəfindən iqtisadi-ticari müstəvidə hədələndi. Sonda o, şifahi də olsa, öhdəlik götürdü ki, Qərblə yanaşı, Rusiyanın rəhbərlik etdiyi Avrasiya İqtisadi İttifaqında aktiv olacaq. Hazırda ən mühüm suallardan biri Rusiyanın Ermənistanı əvvəki kimi, öz təsirində saxlamasının mümkün olub olmadığıdır.



Ekspert qeyd edir ki, Rusiyanın Ermənistan üzərindəki təsirinin tamamilə aradan qalxacağını söyləmək mümkün deyil. Moskvanın keçmişdə olduğu kimi, İrəvanın xarici siyasət və təhlükəsizlik seçimlərini təkbaşına müəyyən edən aktor olmaq qabiliyyəti getdikcə zəifləyir. Bu vəziyyət yalnız Paşinyanın seçimləri ilə deyil, həm də Cənubi Qafqazda və beynəlxalq sistemdə baş verən struktur dəyişikliklərlə bağlıdır:

“Sovet İttifaqı dağılandan sonra Ermənistanın təhlükəsizlik arxitekturası böyük ölçüdə Rusiyaya əsaslanırdı. 2020-ci il Qarabağ müharibəsi və sonrasında baş verən hadisələr Ermənistanda Rusiyanın təhlükəsizlik təminatçısı roluna dair ciddi suallar yaratdı. Bu proses Paşinyan hakimiyyətini xarici siyasət və təhlükəsizlik sahəsində alternativlər axtarmağa yönəltdi.

Ermənistanın Avropa İttifaqı, ABŞ və Fransa ilə münasibətlərini inkişaf etdirməsi, eyni zamanda Hindistanla müdafiə əməkdaşlığını genişləndirməsi onun tək mərkəzdən asılı qalmaq istəmədiyini göstərir. Bununla yanaşı, Rusiya enerji sektoru, ticarət, investisiyalar və Avrasiya İqtisadi İttifaqı vasitəsilə Ermənistan üzərindəki təsirini davam etdirir. Bundan əlavə, Moskva Cənubi Qafqazı strateji maraq zonası kimi görməkdə davam edir. Bu səbəbdən də, qarşıdakı dövrdə Rusiya-Ermənistan münasibətlərində tam qopmadan daha çox yeni balans axtarışının meydana çıxması ehtimal olunur. Rusiya öz təsirini qoruyacaq, lakin keçmişdə malik olduğu müstəsna nüfuz sahəsini saxlamaq getdikcə çətinləşəcək”.

Paşinyanın Putinlə Azərbaycan əleyhinə hansısa gizli sövdələşməyə getməsi iddialarına gəldikdə isə, ekspert deyir ki, son dövrdə region siyasəti ilə bağlı müxtəlif iddialar irəli sürülsə də, Nikol Paşinyanla Vladimir Putin arasında Azərbaycana qarşı genişmiqyaslı gizli razılaşmanın əldə edildiyini təsdiqləyən konkret və inandırıcı faktlar mövcud deyil. Mövcud geosiyasi mənzərə göstərir ki, bu cür qiymətləndirmələr daha çox siyasi şərh və spekulyasiya xarakteri daşıyır:

“İlk növbədə qeyd etmək lazımdır ki, son illər Moskva ilə İrəvan arasındakı münasibətlər kifayət qədər mürəkkəb və gərgin mərhələdən keçib. Paşinyan hakimiyyəti Rusiyanın regional siyasətini tənqid edib, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) effektivliyini sual altına alıb və Qərblə münasibətlərini inkişaf etdirməyə çalışıb. Buna qarşılıq olaraq Moskva da Ermənistanın bu istiqamətdəki addımlarından narahatlığını müxtəlif formalarda ifadə edib. Bu səbəbdən tərəflər arasında tam strateji uyğunluqdan danışmaq çətindir.

Digər tərəfdən, Rusiyanın Cənubi Qafqaz siyasəti hər hansı bir ölkənin yanında yer almaqdan daha çox, regiondakı bütün aktorlar üzərində təsirini qorumaq prinsipinə əsaslanır. Bundan əlavə, Moskva ilə Bakı arasında enerji, nəqliyyat, ticarət və təhlükəsizlik sahələrində davam edən mühüm əlaqələr mövcuddur. Bu vəziyyət Kremlin yalnız Ermənistanın maraqlarına xidmət edən siyasət yürütməsini ehtimal olunan ssenari etmir. Dövlətlərarası münasibətlərdə ictimaiyyətə açıqlanmayan diplomatik təmaslar, danışıqlar və qarşılıqlı maraq hesablamaları hər zaman mümkündür. Lakin mövcud şərait və bu günə qədər ortaya çıxan faktlar nəzərə alındıqda, belə təmasları birbaşa Azərbaycana qarşı yönəlmiş gizli razılaşmanın tərkib hissəsi kimi qiymətləndirmək üçün kifayət qədər əsas yoxdur.

Mövcud mənzərə daha çox Rusiyanın Cənubi Qafqazdakı nüfuzunu qorumağa çalışdığını, Paşinyan hakimiyyətinin isə Moskva ilə münasibətlərini tamamilə qoparmadan Qərblə yaxınlaşma siyasətini davam etdirdiyini göstərir. Buna görə də Putinlə Paşinyan arasında Azərbaycana qarşı genişmiqyaslı gizli razılaşmanın mövcud olduğu barədə iddialar hazırkı mərhələdə konkret faktlarla dəstəklənən qiymətləndirmədən daha çox spekulyasiya xarakteri daşıyır”. İndi ən çox müzakirə edilən məqamlardan biri də seçkidə xalqdan aldığı etimadın Paşinyana, Azərbaycanın tələb etdiyi kimi, konstitusiyanı dəyişərək Azərbaycana və hətta Türkiyəyə qarşı ərazi iddialarını çıxarmasına imkan verib-verməyəcəyidir. Türkiyəli politoloq bildirir ki, əslində, qarşıdakı dövrün ən kritik mövzularından biri məhz bu olacaq. Azərbaycan rəhbərliyi uzun müddətdir ki, davamlı sülh sazişinin qarşısındakı əsas maneələrdən birinin Ermənistan Konstitusiyasında yer alan və Bakı tərəfindən dolayı ərazi iddiası kimi qiymətləndirilən bəzi müddəalar olduğunu bildirir. Bu səbəbdən Azərbaycan sülh sazişinin yalnız siyasi deyil, həm də hüquqi və konstitusion səviyyədə təminat altına alınmasını istəyir: “Paşinyanın son illərdəki açıqlamalarına nəzər saldıqda, Ermənistanın yeni regional reallıqlara uyğunlaşmalı olduğu yanaşmasını mənimsədiyi görünür. Xüsusilə 2020-ci ildən sonra formalaşan güc balansı İrəvanı daha praqmatik siyasətlərə yönəldib.

*“Ermənistanda milliyyətçi dairələrin, müxalifətin və diasporun daxilində bu cür addımlara qarşı ciddi etirazların yarana biləcəyi unudulmamalıdır*

Paşinyan da müxtəlif hallarda konstitusion islahatlara ehtiyac olduğunu vurğulayıb və ölkəsinin gələcəyinin yeni regional şərtlər çərçivəsində formalaşdırılmasının vacibliyini qeyd edib. Seçkilərdən əldə etdiyi siyasi legitimlik ona bu məsələdə mühüm fəaliyyət imkanı yaradır. Konstitusiya dəyişikliyi yalnız siyasi iradədən asılı deyil. Ermənistanda milliyyətçi dairələrin, müxalifətin və diasporun daxilində bu cür addımlara qarşı ciddi etirazların yarana biləcəyi unudulmamalıdır. Buna görə də proses hüquqi olduğu qədər siyasi və ictimai transformasiyanı da tələb edir. Bununla yanaşı, Ermənistanın iqtisadi inkişaf hədəfləri, Türkiyə ilə normallaşma prosesi, regional nəqliyyat xətlərinin açılması və beynəlxalq investisiyaların artırılması daha sabit regional mühiti zəruri edir. Bu səbəbdən konstitusion islahatlar yalnız Azərbaycanın tələbi deyil, eyni zamanda Ermənistanın uzunmüddətli maraqları baxımından da mühüm əhəmiyyət daşıyır.

Əgər Paşinyan bu məsələdə zəruri siyasi dəstəyi təmin edə bilsə, konstitusiya dəyişikliyi təkcə Azərbaycanla sülh sazişinin yolunu açmayacaq, eyni zamanda Türkiyə-Ermənistan normallaşmasını sürətləndirərək Cənubi Qafqazda daha sabit və əməkdaşlığa əsaslanan yeni bir dövrün formalaşmasına töhfə verəcək”.

✍ *Vüsal Tağıbəyli*

# Taksilər bahalaşdı

***B**akıda fəaliyyət göstərən bir sıra tanınmış taksi şirkətlərində qiymətlərin əhəmiyyətli dərəcədə artdığı bildirilir. Son günlər sosial şəbəkələrdə və müxtəlif platformalarda paytaxt sakinləri taksi sifarişləri zamanı əvvəlki dövrlə müqayisədə daha yüksək tariflərlə qarşılaşdıqlarını qeyd edirlər. Məlumata görə, iyun ayının əvvəlindən etibarən bəzi taksi xidmətlərində gediş haqları 40-50 faizədək bahalaşıb. İddialara əsasən, xüsusilə “Yango” platformasında qiymətlər ciddi şəkildə yüksəlib. Oxşar vəziyyətin “Bolt” taksi xidmətində də müşahidə edildiyi, burada da tariflərin təxminən 40 faiz artdığı bildirilir.*

## Cəmiyyət



Diqqət çəkən məqam ondan ibarətdir ki, qiymət artımı ənənəvi olaraq tariflərin yüksəldiyi hallarla - yağışlı hava, pik saatlar və ya yol sıxlığı ilə əlaqələndirilmir. İstifadəçilərin sözlərinə görə, adi vaxtlarda belə əvvəlki qiymətlərlə müqayisədə nəzərəçarpacaq fərq yaranıb.

■ **Mövzu ilə bağlı nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov qeyd edib ki, taksi bazarında baş verən dəyişikliklər təsadüfi deyil və bunun arxasında bir neçə iqtisadi amil dayanır.** Onun sözlərinə görə, son aylarda taksi sektorunda tətbiq edilən yeni qaydalar bazarın fəaliyyət mexanizminə birbaşa təsir göstərib: “Taksi fəaliyyəti ilə bağlı yeni tələblərin tətbiqi, sürücülərin sertifikatlaşdırılması, avtomobillərə qoyulan texniki və keyfiyyət standartlarının sərtləşdirilməsi bazarda fəaliyyət göstərən sürücülərin sayının azalmasına səbəb olub. Təklif azaldıqda, lakin tələb eyni qaldıqda və ya artdıqda qiymətlərin yüksəlməsi iqtisadi baxımdan təbii prosesdir”. Ekspert deyib ki, qiymət artımına təsir edən əsas amillərdən biri də sürücülərin üzləşdiyi xərclərin yüksəlməsidir: “Avtomobillərin texniki baxışı, ehtiyat hissələri, servis xidmətləri, sığorta və digər xərclər son dövrlərdə artıb. Taksi fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirlərinin qorunması üçün tariflərə yenidən baxılması qaçılmaz olur. Bu baxımdan müşahidə olunan bahalaşma yalnız platformaların qərarı deyil, ümumi bazar şərtlərinin nəticəsidir”.

*“Taksi bazarında baş verən dəyişikliklər təsadüfi deyil və bunun arxasında bir neçə iqtisadi amil dayanır*

A. Əsədovun fikrincə, hazırda bazarda müşahidə olunan qiymət dəyişiklikləri keçid dövrünün təsirlərindən qaynaqlanır. O hesab edir ki, yeni tələblərə uyğunlaşan sürücülərin sayı artdıqca bazarda müəyyən sabitləşmə yarana bilər: “Əgər yaxın aylarda daha çox sürücü yeni qaydalara uyğun fəaliyyətə başlasa, təklif genişlənə və qiymətlər müəyyən qədər sabitləşə bilər. Lakin indiki mərhələdə gediş haqlarının əvvəlki səviyyəyə qayıdacağını gözləmək çətindir. Çünki bazarda həm xidmət keyfiyyətinin artırılması, həm də təhlükəsizlik standartlarının yüksəldilməsi istiqamətində proses gedir”. Ekspert vurğulayıb ki, uzunmüddətli perspektivdə əsas məqsəd daha təhlükəsiz, keyfiyyətli və peşəkar taksi xidmətinin formalaşdırılmasıdır. Bununla yanaşı, bu prosesin müəyyən maliyyə yükü yaratması da qaçılmazdır.

Qeyd edək ki, rəsmi qurumlar və taksi platformaları tərəfindən qiymət artımı ilə bağlı hələlik geniş açıqlama verilməyib. Lakin bazarda müşahidə olunan son tendensiyalar göstərir ki, taksi sektorunda aparılan islahatlar və artan əməliyyat xərcləri qiymətlərə təsir edən əsas amillər kimi ön plana çıxır. Hazırda isə ən çox narahatlıq doğuran məsələ gündəlik olaraq taksidən istifadə edən vətəndaşların nəqliyyat xərclərinin artmasıdır. Ekspertlər hesab edirlər ki, qarşıdakı aylarda bazarın yeni şərtlərə uyğunlaşma sürəti qiymətlərin gələcək istiqamətini müəyyənləşdirəcək.

✍ *Sevinc*

# Uşaqların rəqəmsal təhlükəsizliyi

***Son illər uşaqların rəqəmsal mühitdə keçirdiyi vaxtın artması, sosial şəbəkələrin onların psixoloji inkişafına, davranışlarına və informasiya təhlükəsizliyinə təsiri dünyanın bir çox ölkəsində ciddi müzakirə mövzusuna çevrilib. Bu baxımdan Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlara təklif olunan dəyişikliklər uşaqların rəqəmsal mühitdə daha etibarlı şəkildə qorunmasına xidmət edən mühüm addım kimi qiymətləndirilir.***



## Cəmiyyət

Mütəxəssislərin fikrincə, məqsəd uşaqların internet və sosial şəbəkələrdən istifadəsini məhdudlaşdırmaq deyil, onların yaş xüsusiyyətlərinə uyğun, təhlükəsiz və sağlam rəqəmsal mühitdə fəaliyyətini təmin etməkdir. Yeni yanaşma həm valideynlərin məsuliyyətini artırmağı, həm sosial şəbəkə platformalarının öhdəliklərini dəqiqləşdirməyi, həm də dövlətin uşaqların hüquqlarının müdafiəsi istiqamətində fəaliyyətini gücləndirməyi nəzərdə tutur.

■ **Elnarə Akimova, millət vəkili:**

- Azərbaycanda uşaqların rəqəmsal mühitdə zərərli məzmun və təsirlərdən qorunması istiqamətində yeni qanunvericilik təşəbbüsləri mühüm addım hesab edilə bilər. Prezident İlham Əliyevin 2026-cı ildə imzaladığı sərəncamla sosial şəbəkələrdə yaş məhdudiyyətlərinin tətbiqi və bu sahədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi nəzərdə tutulur. Bu dəyişikliklər, ilk növbədə, uşaqların zorakılıq, pornoqrafiya, kiberbullinq, narkotik vasitələrin təbliği və digər zərərli məzmunlarla qarşılaşma riskini azaltmağa xidmət edir. Hüquqi tənzimləmə platformaların üzərinə də məsuliyyət qoyur və onların yaş yoxlama mexanizmlərini tətbiq etməsini tələb edir.

Bundan əlavə, qanunvericilik dövlət qurumlarına uşaqların rəqəmsal təhlükəsizliyi ilə bağlı vahid siyasət formalaşdırmaq imkanı verir. Bu, həm də "Fərdi məlumatlar haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" qanunların məqsədlərinə uyğun olaraq uşaqların şəxsi məlumatlarının qorunmasını gücləndirə bilər. Əhəmiyyətli məqamlardan biri də odur ki, qanunvericilik yalnız qadağa mexanizmi deyil, həm də profilaktik vasitə kimi çıxış edir. Uşaqların internetdən istifadəsinə dair qaydaların müəyyənləşdirilməsi, məktəblərdə rəqəmsal davranış standartlarının tətbiqi və maarifləndirmə tədbirlərinin genişləndirilməsi hüquqi çərçivənin ayrılmaz hissəsinə çevrilə bilər. Yeni dəyişikliklər uşaqların hüquqlarının müdafiəsini gücləndirməklə yanaşı, rəqəmsal mühitin daha təhlükəsiz və nəzarət olunan formaya keçməsinə xidmət edə bilər. Yaş məhdudiyyətləri beynəlxalq praktikada uşaqların qorunması üçün ən geniş tətbiq olunan mexanizmlərdən biridir. Azərbaycanda da 16 yaşdan aşağı şəxslərin müəyyən platformalarda fərdi rəqəmsal hesab yaratmasının məhdudlaşdırılması nəzərdə tutulur.

> *16 yaşdan aşağı şəxslərin müəyyən platformalarda fərdi rəqəmsal hesab yaratmasının məhdudlaşdırılması nəzərdə tutulur*

> *Biz bu gün uşaqlarımızın gələcəyi uğrunda elə uşaqların özləri ilə mübarizə aparırıq*

Bu mexanizm uşaqların yaşlarına uyğun olmayan məzmunlara çıxışını müəyyən qədər məhdudlaşdıra bilər. Xüsusilə zorakılıq, qumar, narkotiklərin təbliği, aqressiv davranış və seksual xarakterli məzmunların yayılması riskləri azalır. Lakin təkcə yaş məhdudiyyəti problemi tam həll etmir. Dünyanın bir çox ölkəsində uşaqlar yaşlarını düzgün göstərməməklə bu sistemləri asanlıqla keçə bilirlər. Buna görə də yaş məhdudiyyəti texniki yoxlama sistemləri ilə müşayiət olunmalıdır. Qanun layihəsində yaşın bəyan olunması və digər texniki yoxlama üsullarının tətbiqi nəzərdə tutulur ki, bu da əvvəlki mexanizmlərlə müqayisədə daha effektiv yanaşma hesab edilə bilər. Eyni zamanda valideyn nəzarəti, rəqəmsal savadlılıq və platformaların məzmun moderasiyası da vacib elementlərdir. Əgər bu komponentlər birlikdə tətbiq olunarsa, yaş məhdudiyyəti uşaqların zərərli informasiyadan qorunmasında kifayət qədər effektiv vasitəyə çevrilə bilər. Uşaqların rəqəmsal təhlükəsizliyi kollektiv məsuliyyət tələb edən sahədir. Bu məsuliyyəti yalnız bir tərəfin üzərinə qoymaq düzgün olmaz. Valideynlər ilk növbədə övladlarının internet davranışlarına nəzarət etməli, onların hansı platformalardan istifadə etdiyini bilməli və təhlükələr barədə məlumatlandırmalıdır. Uşaq ilk rəqəmsal vərdişləri ailədə formalaşdırır. Dövlətin vəzifəsi isə hüquqi çərçivə yaratmaq, təhlükəsizlik standartlarını müəyyən etmək və onların icrasına nəzarət etməkdir.

Son sərəncam və qanunvericilik təşəbbüsləri məhz dövlətin bu istiqamətdə məsuliyyətini göstərir. Sosial şəbəkə platformaları da ciddi məsuliyyət daşıyırlar. Onlar yaş yoxlama sistemləri qurmalı, zərərli məzmunu operativ silməli, uşaqların şəxsi məlumatlarının qorunmasını təmin etməlidirlər. Məktəblər də bu zəncirin mühüm həlqəsidir. Rəqəmsal təhlükəsizlik, media savadlılığı və kibertəhlükəsizlik mövzuları təhsil proqramlarında daha geniş yer almalıdır. Buna görə də ən optimal model dövlət, ailə, məktəb və platformalar arasında bölüşdürülmüş məsuliyyət modelidir.

■ **Jalə Əliyeva, millət vəkili:**

- Azərbaycan Respublikasında bu istiqamətdə hazırlanmış qanun layihəsi olduqca mühüm əhəmiyyət daşıyır və təsadüfi deyil ki, sənəd parlamentin üç komitəsi tərəfindən dəstəklənib. Bu məsələ yalnız Azərbaycanın deyil, bu gün bütün dünyanın qarşısında duran ciddi problemlərdən biridir. Söhbət uşaqların rəqəmsal mühitdə üzləşdiyi təhlükələrdən, onlara qarşı zorakılıq hallarından, müxtəlif zərərli çağırışlardan və mənfi informasiya təsirlərindən gedir. Azərbaycan da dünyanın bir parçası kimi bu çağırışlara biganə qala bilməz. Dövlət indiyədək müxtəlif hüquqi və institusional mexanizmlər vasitəsilə bu istiqamətdə mühüm addımlar atıb. Hələ 2015-ci ildən etibarən uşaqların zərərli informasiyadan qorunmasına yönəlmiş qanunvericilik təşəbbüsləri həyata keçirilib. Hazırda müzakirə olunan dəyişikliklər isə mövcud hüquqi bazanın daha da təkmilləşdirilməsinə xidmət edir. Burada əsas məqsəd uşaqları onların psixoloji inkişafına mənfi təsir göstərən, asılılıq yaradan, savadsızlığa və etinasızlığa sürükləyən informasiya axınlarından qorumaqdır. Söhbət gələcəyimiz olan uşaqlardan, sağlam nəslin formalaşmasından gedir.

Uşaqlar son dərəcə həssas auditoriyadır və təəssüf ki, mənfi təsirləri daha tez qəbul edir və mənimsəyirlər. Sonradan həmin təsirlər onların davranışında, dünyagörüşündə və həyat tərzində özünü göstərir. Bu baxımdan yaş məhdudiyyətlərinin tətbiqi və qeydiyyat qaydalarının tənzimlənməsi mühüm preventiv mexanizmlərdən biri hesab oluna bilər. Əlbəttə, bu tədbirlər bütün problemləri birdəfəlik həll etmir. Uşaqların yaşlarına uyğun olmayan məzmunlara çıxış imkanlarının məhdudlaşdırılması, onların təhlükəli çağırışlardan və zərərli təsirlərdən qorunması baxımından mühüm rol oynayır. Dövlətin və qanunvericiliyin əsas vəzifələrindən biri də məhz bu təhlükələrin qarşısını almaqdır.

Dünyanın bir çox ölkələri uşaqların rəqəmsal təhlükəsizliyinin təmin olunması istiqamətində müxtəlif modellər tətbiq edir. Azərbaycanın yanaşmasının üstün cəhəti ondan ibarətdir ki, burada məsuliyyət yalnız dövlətin və ya texnologiya şirkətlərinin üzərinə qoyulmur. Məsələyə kompleks yanaşılır və ailə, məktəb, cəmiyyət və dövlət birlikdə bu prosesin iştirakçısı kimi nəzərdə tutulur.

Hər bir uşaq, ilk növbədə, ailədə formalaşır. Onun əxlaqı, davranışı, dünyagörüşü və gələcəyə baxışı ailədə yaranır. Daha sonra bağça, məktəb və digər təhsil müəssisələri bu prosesdə mühüm rol oynayır. Ona görə də qanunvericiliklə yanaşı, tərbiyə və maarifləndirmə mexanizmlərinin də gücləndirilməsi Azərbaycanın yanaşmasının vacib elementlərindən biridir.

Uşaqlarda rəqəmsal savadlılığın artırılması, təhlükəli məzmunu tanımaq bacarıqlarının formalaşdırılması, internetdə təhlükəsiz davranış qaydalarının öyrədilməsi mühüm əhəmiyyət daşıyır. Bununla yanaşı, qanunvericilik də daim təkmilləşdirilməli, yeni yaranan təhdidlərə uyğun mexanizmlər tətbiq olunmalıdır.

Burada söhbət yalnız texnologiyadan deyil, ölkənin gələcəyindən, sağlam mühitdən, sağlam ailədən və sağlam vətəndaşın formalaşmasından gedir.

Şübhəsiz, uşaqların qorunmasında əsas məsuliyyət ilk növbədə ailələrin üzərinə düşür. Lakin müasir dövrdə valideynlərin özlərinin də informasiya texnologiyalarından və mobil cihazlardan asılılığı nəzərə alınmalıdır. Bu səbəbdən qanunvericilik valideynlərə daha effektiv nəzarət mexanizmləri təqdim etməli, onların məlumatlandırılmasını və texniki imkanlarını genişləndirməlidir. Əgər hər hansı hüquq və ya sərbəstlik uşağın sağlam inkişafını, təhlükəsizliyini və gələcəyini risk altına qoyursa, dövlət uşaqların mənafeyini əsas götürərək qanunvericiliyi təkmilləşdirməyə borcludur.

Müzakirə olunan dəyişikliklər də məhz həmin məqsədə - uşaqların təhlükəsiz və sağlam rəqəmsal mühitdə böyüməsinə xidmət edir.

Belə böyük ideallar və dəyərlər naminə bu məsələləri müzakirə etməyə də, mübarizə aparmağa da və zəruri hallarda daha sərt qoruyucu tədbirlər tətbiq etməyə də dəyər.

Biz uşaqlarımızın gələcəyi uğrunda mübarizə aparırıq. Bəzən elə olur ki, bu mübarizəni uşaqların özləri ilə aparmalı oluruq. Onların hər istəyi və ya seçimi həmişə mənafelərinə xidmət etmir. Bizim vəzifəmiz isə onları təhlükələrdən qorumaq və düzgün istiqamətə yönəltməkdir.

✍ *Tahirə Qafarlı*



Müzakirə

# Qiymətləndirmə sahəsində narazılıq

***Azərbaycanda qiymətləndirmə sektorunun gələcəyi ilə bağlı müzakirələr yeni mərhələyə keçib. Bir tərəfdən 2023-cü ildə qəbul edilən "Qiymətləndirmə fəaliyyəti haqqında" qanunun təkmilləşdirilməsi zərurəti gündəmə gətirilir, digər tərəfdən isə qanuna təklif olunan bəzi dəyişikliklərin sektorun gələcəyinə mənfi təsir göstərə biləcəyi barədə narahatlıqlar səsləndirilir.***

Mövzu Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti (AQC) İdarə Heyətinin geniştərkibli iclasında da əsas müzakirə predmetlərindən biri olub. İclasda ölkədə qiymətləndirmə fəaliyyətinin tənzimlənməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, milli standartların hazırlanması və struktur islahatları ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Toplantıda İdarə Heyətinin üzvləri Azərbaycan Qiymətləndiricilər Palatasının 102 təsisçisinin və 200-ə yaxın üzvünün yer aldığı ümumi yığıncaqda müzakirəyə çıxarılmadan və rəsmi qərar qəbul edilmədən qanuna əlavə və dəyişikliklərlə bağlı irəli sürülən təkliflərdə yer alan bir sıra nüansların sərbəst bazar prinsiplərinə və peşəkar qiymətləndiricilərin maraqlarına zidd olduğunu bildiriblər. Natiqlər bu addımların sahənin inkişafına maneə törədə biləcəyini və bu səbəbdən yolverilməz olduğunu kəskin şəkildə diqqətə çatdırıblar. Bu təkliflərin hüquqi və institusional təsirlərinin sektorun inkişafına ciddi maneələr yaratdığı vurğulanıb. Bildirilib ki, hazırda Palata tərəfindən təklif olunan dəyişikliklərin böyük əksəriyyəti sektorun monopoliyaya alınması, bir qrup şirkətin inzibati rıçaqlarla qiymətləndirmə sistemini öz nəzarətinə götürməsi, həmçinin müstəqil qiymətləndiricilərin və şirkətlərin sıxışdırılaraq sektordan çıxarılmasına hesablanıb. Bu isə həm Azərbaycan Konstitusiyası, eyni zamanda beynəlxalq qanunvericiliklə ziddiyyət təşkil edir.

> *Mövcud qanunvericilikdə bir sıra müddəalar beynəlxalq standartlarla uyğunlaşdırılmalıdır*

■ **AQC-nin sədri Vüqar Oruc hesab edir ki, mövcud qanunvericilikdə bir sıra müddəalar beynəlxalq standartlarla uyğunlaşdırılmalıdır. Qeyd olunub ki, hazırda qiymətləndirici olmaq istəyən şəxslər 10 müxtəlif istiqamət üzrə imtahan verməlidirlər.** Halbuki bir çox ölkələrdə bu istiqamətlərin sayı 3 və ya 4-dən artıq deyil. "Bir-birinə yaxın istiqamətlər birləşdirilməli, imtahan sistemi sadələşdirilməli və beynəlxalq praktikaya uyğunlaşdırılmalıdır. Bu, həm peşəyə çıxışı asanlaşdıracaq, həm də sektorun inkişafına töhfə verəcək", - deyə V.Oruc vurğulayıb.

Müzakirələr zamanı bildirilib ki, qiymətləndirmə bazarında sağlam rəqabətin qorunması vacib şərtlərdən biridir.

AQC rəhbərliyi hesab edir ki, yalnız bir peşəkar qurumun fəaliyyət göstərməsi sektorda inhisarçılıq risklərini artırır. Bu baxımdan, bir neçə palatanın yaradılmasına imkan verən modelin tətbiq olunması təklif edilir. Nümunə kimi Qazaxıstan təcrübəsi göstərilir. Həmin ölkədə müəyyən sayda qiymətləndirici birləşərək yeni palata yarada bilir və dövlət həmin qurumların fəaliyyətinə nəzarət edir.

"Bir neçə palatanın mövcudluğu rəqabəti artırır, şəffaflığı gücləndirir və qiymətləndiricilərə seçim hüququ verir. Əgər hansısa qurum üzvlərinin maraqlarını qorumursa, onlar başqa təşkilata keçə bilirlər", - deyə V.Oruc qeyd edib. Onun sözlərinə görə, hazırkı modeldə bir qrup şirkətin digər bazar iştirakçıları üzərində təsir imkanlarının yaranması maraqların toqquşmasına səbəb olur.

AQC nümayəndələri qanuna təklif olunan bəzi dəyişikliklərdə qiymətləndiricilər üçün daha sərt sanksiyaların nəzərdə tutulduğunu bildirirlər. Onların fikrincə, böyük məbləğdə cərimələrin tətbiqi, məhkəmə qərarı olmadan üzvlükdən çıxarma mexanizmlərinin yaradılması və digər inzibati tədbirlər sektorda ciddi problemlər yarada bilər. İclas iştirakçıları vurğulayıblar ki, qiymətləndiricilər iqtisadi münasibətlərdə obyektiv və müstəqil tərəf kimi çıxış etdiklərindən onların fəaliyyətinə həddindən artıq inzibati müdaxilə bazarın normal işləməsinə mənfi təsir göstərə bilər. Müzakirələrin yekununda bildirilib ki, qiymətləndiricilərin hüquqlarının qorunması və sektorun inkişafının təmin olunması məqsədilə Prezident Administrasiyasına, Milli Məclisə, İqtisadiyyat Nazirliyinə, Maliyyə Nazirliyinə, Ədliyyə Nazirliyinə, Azərbaycan Qiymətləndiricilər Palatasına və digər aidiyyəti qurumlara rəsmi müraciətlər göndəriləcək.

AQC rəhbərliyi hesab edir ki, Azərbaycanın iqtisadi siyasətinin əsas istiqamətlərindən biri azad sahibkarlığın, rəqabət mühitinin və antiinhisar prinsiplərinin qorunmasıdır. Bu səbəbdən qiymətləndirmə sektorunda da eyni yanaşmanın tətbiq olunması vacibdir.

Ekspertlərin fikrincə, qanunvericilikdə ediləcək dəyişikliklər sektorda şəffaflığın artırılmasına, peşəkar fəaliyyətin inkişafına və bazar iştirakçıları arasında bərabər imkanların yaradılmasına xidmət etməlidir. Əks halda, qiymətləndirmə sahəsində yaranacaq problemlər bank, sığorta, investisiya və daşınmaz əmlak bazarları da daxil olmaqla bütövlükdə iqtisadi ekosistemə mənfi təsir göstərə bilər.

✍ *Sevinc*



■ **ABŞ-nin Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) Azərbaycanda 2026-2027-cı illər üçün orta hesabla gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı üzrə proqnozunu yeniləyib.**

2027-ci ildə ölkədə ortalama gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı 520 min barel səviyyəsində olacaq, bu da öncəki proqnoz göstəricidən 20 min barel azdır. EIA-nın ehtimalına görə, 2026-cı ildə ölkədə gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı 550 min barel təşkil edəcək (öncəki proqnoz göstərici - 540 min barel). Hesabata əsasən, Azərbaycanda qeyd olunan göstərici 2025-ci ildə 570 min barel təşkil edib.



■ **"Bəzən cəmiyyətdə belə fikirlərlə qarşılaşırıq ki, guya Mədəniyyət Nazirliyi kitabxanaları bağlayır və ya bu sahəyə münasibət soyuqdur. Bu, qətiyyən doğru deyil və belə bir mövqe qəbul edilə bilməz". Bunu mədəniyyət naziri Adil Kərimli deyib.**

Nazir bildirib ki, kitabxanalar Mədəniyyət Nazirliyi üçün mühüm və vacib təsisatlardır. Nazir əlavə edib ki, kitabxanaların fəaliyyəti ilə bağlı geniş araşdırmalara başlanılıb: "İlk monitorinq apardığımız sahələrdən biri ölkə ərazisində fəaliyyət göstərən və Mədəniyyət Nazirliyinin tabeliyində olan kitabxana strukturlarının, eləcə də kitabxana müəssisələrinin kompleks şəkildə qiymətləndirilməsi olub.



■ **Azərbaycan Mərkəzi Bankı (AMB) banklara minimum data indikatorları ilə bağlı yeni tövsiyələr hazırlayır. Bunu AMB0nin Ödəniş Sistemləri və Məhsulların İnkişafı Departamentinin baş mütəxəssisi Elvin Cüvarov deyib.**

Onun sözlərinə görə, anti-frod sahəsində ilkin mərhələdə əsas diqqət normativ tələblərin və nəzarət mexanizmlərinin formalaşdırılmasına yönəldilməlidir.

Bununla yanaşı, banklar paralel şəkildə öz daxili anti-frod strukturlarını gücləndirməlidirlər. E.Cüvarov həmçinin "data governance" məsələlərinin vacibliyinə toxunub. Onun sözlərinə görə, Mərkəzi Bank bu istiqamətdə banklara beynəlxalq praktikaya uyğun minimum məlumat indikatorlarının tətbiqi ilə bağlı tövsiyələr verməyi planlaşdırır.



■ **Beynəlxalq Valyuta Fondu (BVF) Ermənistan üçün təxminən, 25,1 milyon dollar həcmində əlavə maliyyə çıxışını təsdiqləyib. Bu barədə fondun rəsmi saytında məlumat yerləşdirilib.**

Məlumata görə, BVF-nin İcraiyyə Şurası Ermənistanla 2025-ci il üzrə ehtiyat sazişi - "Stand-By Arrangement" çərçivəsində birinci icmalı yekunlaşdırıb.

Bununla da ölkəyə 18,4 milyon SDR, yəni təxminən 25,1 milyon dollar məbləğində əlavə maliyyə çıxışı təqdim olunub. Proqramın əsas məqsədi Ermənistan hökumətinin iqtisadi və maliyyə sabitliyinin qorunmasına, eləcə də davamlı, inklüziv və balanslaşdırılmış iqtisadi artımın dəstəklənməsinə yönəlmiş islahatlarını dəstəkləməkdir.



■ **"Atletiko" Xulian Alvaresin transferi ilə bağlı "Real"ın 150 milyon avroluq təklifindən imtina edib. Bu barədə "Real"ın rəsmi saytı məlumat yayıb.**

Klubun Direktorlar Şurasının iclasında Alvaresin hüquqlarının 150 milyon avroya alınması barədə qərar qəbul edilib. Ancaq "Atletiko" oyunçunu satmaq istəməyib və qarşı tərəfin təklifini rədd edib.

26 yaşlı Xulian Alvares Argentina millisinin heyətində 51 oyun keçirib, 14 qol vurub və 4 məhsuldar ötürmə edib. Hücumçu milli komanda ilə birlikdə 2022-ci il dünya çempionatını, Amerika kubokunu (2021, 2024) və Finalissimanı (2022) qazanıb. Alvares başa çatan mövsüm "Atletiko"da 49 oyuna 20 qol vurub, 9 qol ötürməsi edib.



■ **Hörmüz boğazında gəmi nəqliyyatı əhəmiyyətli dərəcədə artıb. Bunu ABŞ-nin energetika naziri Kris Rayt deyib. "Neft qiymətlərinin niyə gözlənildiyi qədər artmamasının isə bir çox səbəbi var. ABŞ strateji neft ehtiyatlarından 30 ölkə ilə koordinasiyalı şəkildə bazara neft verir.**

ABŞ öz ehtiyatlarından neft satmır, əksinə barter metodundan istifadə edir. Bazarı strateji ehtiyatlardan təmin etməklə yanaşı, ABŞ-də və digər istehsalçı ölkələrdə neft hasilatı da artıb. Düşünürəm ki, enerji axınlarının normal vəziyyətə qayıtması üçün aylar lazım olacaq", - deyə nazir bildirib. Zərərin dərəcəsi nəzərə alınmaqla neft qiymətlərinin gözləniləndən aşağı qaldığı qiymətləndirməsi ilə razılaşan Kris Rayt deyib ki, ABŞ və Yaxın Şərq tərəfdaşlarının istehsal gücünü artırmaq siyasəti bazarları dəstəkləyib.

# Bankımızı özümüz seçəcəyik




Layihə çərçivəsində bankların pensiyaçılar və digər ödəniş alan şəxslər üçün təqdim etdikləri xüsusi xidmət paketlərinin genişləndirilməsi də nəzərdə tutulur

Vətəndaşın konkret bankla işləməyə məcbur edilməsi nə qanunvericiliyin ruhuna, nə də Mülki Məcəllənin tələblərinə uyğundur

## Maliyyə

***Azərbaycanda pensiya, əməkhaqqı və sosial ödənişlərin həyata keçirilməsi mexanizmində mühüm dəyişikliklər gözlənilir. Yaxın gələcəkdə vətəndaşlar bu ödənişləri almaq üçün bank seçimini özləri edə biləcəklər. Bu yenilik həm vətəndaşların maliyyə xidmətlərinə çıxış imkanlarını genişləndirəcək, həm də bank sektorunda rəqabətin güclənməsinə təkan verəcək. Məsələ ilə bağlı Azərbaycan Mərkəzi Bankının Ödəniş Sistemləri Administratoru Tofiq Acırqayev Bakıda keçirilən "Beynəlxalq Maliyyə və Bankçılıq Sammiti 2026" çərçivəsində çıxış edərək bildirib ki, hazırlanan layihə vətəndaşlara pensiya, əməkhaqqı və sosial ödənişlərini istədikləri bank vasitəsilə almaq imkanı yaradacaq.***

Onun sözlərinə görə, söhbət məcburi dəyişiklikdən deyil, alternativ seçim imkanının yaradılmasından gedir. Belə ki, vətəndaşlar ödənişlərini almaq üçün yalnız müəyyən edilmiş banklarla məhdudlaşmayacaq, öz tələblərinə və maraqlarına uyğun maliyyə qurumunu seçə biləcəklər.

Mütəxəssislər hesab edirlər ki, bu addım ilk növbədə vətəndaş məmnuniyyətinin artırılmasına xidmət edəcək. Bank seçimi hüququ insanların təqdim olunan xidmətlərin keyfiyyətinə, rəqəmsal imkanlara, filial şəbəkəsinə və müxtəlif güzəştlərə əsaslanaraq qərar verməsinə şərait yaradacaq.

Yeni yanaşmanın bank sektoru üçün də əhəmiyyətli nəticələr vəd etdiyi bildirilir. Hazırda pensiya və sosial ödəniş alan şəxslər banklar üçün ən böyük müştəri qruplarından biri hesab olunur. Vətəndaşların sərbəst seçim hüququ əldə etməsi isə maliyyə qurumlarını daha keyfiyyətli xidmət göstərməyə, innovativ məhsullar təqdim etməyə və müştəri yönümlü siyasət yürütməyə sövq edəcək. Mərkəzi Bank rəsmisinin sözlərinə görə, layihə çərçivəsində bankların pensiyaçılar və digər ödəniş alan şəxslər üçün təqdim etdikləri xüsusi xidmət paketlərinin genişləndirilməsi də nəzərdə tutulur. Buraya nağdsız ödənişlər üzrə bonus proqramları, komissiyasız əməliyyatlar, güzəştli xidmətlər və digər stimullaşdırıcı mexanizmlər daxil ola bilər.

Layihənin texniki əsasını isə Ani Ödənişlər Sistemi təşkil edəcək. Mərhələli şəkildə həyata keçiriləcək yeniliyin ilk mərhələsində əməkhaqqı ödənişlərinin sistem üzərindən icrası planlaşdırılır. Sonrakı mərhələlərdə pensiya və sosial müavinətlərin də həmin platforma vasitəsilə ödənilməsi nəzərdə tutulur. Ekspertlərin fikrincə, Ani Ödənişlər Sisteminin imkanlarından istifadə vəsaitlərin daha sürətli, təhlükəsiz və şəffaf şəkildə köçürülməsinə şərait yaradacaq. Eyni zamanda, bu addım ölkədə rəqəmsal ödənişlərin genişlənməsinə və nağdsız hesablaşmaların payının artmasına müsbət təsir göstərəcək.

■ **Mövzu ilə bağlı bank və maliyyə məsələləri üzrə ekspert Əkrəm Həsənov bildirir ki, vətəndaşlara əməkhaqqı və pensiyalarını istədikləri bank vasitəsilə almaq imkanı yaradılması ideyası əslində yeni deyil və bu məsələ artıq bir neçə ildir müzakirə olunur.**

Onun sözlərinə görə, hazırkı sistemdə vətəndaşların müəyyən bankların müştərisinə çevrilməsi və əməkhaqqı və ya pensiyalarını yalnız həmin banklar vasitəsilə almağa məcbur edilməsi hüquqi baxımdan əsaslı deyil. "Bu gün vətəndaşın konkret bankla işləməyə məcbur edilməsi nə qanunvericiliyin ruhuna, nə də Mülki Məcəllənin tələblərinə uyğundur. Bank hesabı müqaviləsi könüllülük prinsipi əsasında bağlanılır. Şəxsin hər hansı bankda hesabının və kartının olması onun həmin bankı seçdiyini göstərir. Bu halda vətəndaşı başqa bankla işləməyə məcbur etmək düzgün deyil. Müştəri istənilən vaxt bankla bağladığı müqaviləyə xitam vermək hüququna malikdir və bu, onun qanuni seçim haqqıdır", - deyə ekspert vurğulayıb.

Ə.Həsənovun sözlərinə görə, hazırda pensiyaların böyük hissəsi Dövlət Sosial Müdafiə Fondunun müəyyən etdiyi banklar vasitəsilə ödənilir, dövlət sektorunda çalışanların əməkhaqları da əvvəlcədən seçilmiş banklar üzərindən köçürülür. Bənzər praktika özəl sektorda da geniş yayılıb.

Ekspert hesab edir ki, bu məhdudiyyətlərin aradan qaldırılması ilk növbədə vətəndaşların konstitusion və mülki hüquqlarının daha dolğun təmin olunmasına xidmət edəcək. "Yeni mexanizm tətbiq edilərsə, vətəndaş xidmətindən narazı qaldığı bankı dəyişmək imkanına malik olacaq.

İşçi əməkhaqqının istədiyi banka köçürülməsini tələb edə biləcək, pensiya alan şəxs isə vəsaitini öz seçdiyi bank hesabına yönləndirə biləcək. Bu, vətəndaşın maliyyə azadlığının genişlənməsi deməkdir", - deyə o bildirir. Ə.Həsənovun fikrincə, dəyişikliklərin ən mühüm nəticələrindən biri bank sektorunda rəqabətin güclənməsi olacaq. Belə ki, müştəriləri saxlamaq və yeni müştərilər cəlb etmək istəyən banklar xidmət keyfiyyətini yüksəltməyə, daha sərfəli şərtlər və innovativ məhsullar təqdim etməyə məcbur olacaqlar.

Ekspert diqqəti digər mühüm problemə, əməkhaqqı və pensiya kartları üzərindən həyata keçirilən bəzi mübahisəli kredit tutulmalarına da yönəldib. Onun sözlərinə görə, hazırda bəzi banklar kredit müqavilələrinə gecikmə halında borcun birbaşa əməkhaqqı və ya pensiya hesabından tutulmasına imkan verən müddəalar daxil edirlər.

"Nəticədə, bəzi hallarda vətəndaşın hesabına daxil olan vəsaitdən birbaşa tutulmalar aparılır. Halbuki maaş və ya pensiya başqa bank vasitəsilə ödənilsəydi, kreditor bank məhkəməyə müraciət etməli, məhkəmə qərarından sonra isə qanunvericiliklə müəyyən edilmiş həddə tutulma həyata keçirilməli idi. Mövcud vəziyyət müəyyən hallarda vətəndaşların hüquqlarının pozulmasına səbəb olur", - deyə o qeyd edib.

Ekspertin sözlərinə görə, yeni sistemin tətbiqi vətəndaşlara kredit borcu olduğu halda belə bank seçimini sərbəst həyata keçirmək imkanı verəcək. Bu zaman borcun geri qaytarılması ilə bağlı məsələlər qanunvericilik çərçivəsində, məhkəmə prosedurları vasitəsilə həll olunacaq.

Ə. Həsənov hesab edir ki, vətəndaşların əməkhaqqı, pensiya və digər sosial ödənişlər üzrə bank seçimi hüququnun tanınması həm qanunun aliliyinin təmin olunmasına, həm maliyyə sektorunda sağlam rəqabətin formalaşmasına, həm də bank xidmətlərinin keyfiyyətinin yüksəlməsinə mühüm töhfə verəcək.

✍ ***Sevinc***

## Nəqliyyat

***Milli Məclisdə sürücülük hüququndan məhrumetmə ilə bağlı tətbiq olunan cərimə balı sisteminin təkmilləşdirilməsi istiqamətində yeni təkliflər müzakirəyə çıxarılıb. Parlamentdə səsləndirilən təşəbbüsə əsasən, peşəkar sürücülər və taksi fəaliyyəti ilə məşğul olan şəxslər üçün hazırda qüvvədə olan 20 ballıq limitin artırılması təklif olunur. Məsələnin aktuallığı son illər ölkədə taksi və sərnişindaşıma sektorunda çalışan şəxslərin sayının artması, eləcə də onların gündəlik iş fəaliyyətinin digər sürücülərdən əhəmiyyətli dərəcədə fərqlənməsi ilə izah edilir. Müzakirələr zamanı vurğulanıb ki, şəhərdaxili və bölgələrarası marşrutlarda çalışan sürücülər gün ərzində adi sürücülərlə müqayisədə bir neçə dəfə daha çox sükan arxasında olurlar. Bu isə onların yol hərəkəti qaydalarını pozmaq riski ilə daha tez-tez üzləşməsinə səbəb olur.***

# Sürücülərə şad xəbər - limit artırılır




Deputatlar və təşəbbüs müəllifləri qeyd ediblər ki, taksi sürücülərinin əksəriyyəti üçün sürücülük fəaliyyəti əsas gəlir mənbəyidir. Bir çox hallarda həmin şəxslər ailələrinin yeganə qazanc gətirən üzvləridir. Mövcud qanunvericiliyə əsasən, sürücü bir il ərzində müəyyən edilmiş cərimə balı həddini keçdiyi halda sürücülük hüququndan məhrum edilir. Bu isə peşəkar sürücülər üçün təkcə inzibati məsuliyyət deyil, həm də birbaşa iş yerinin və gəlir imkanının itirilməsi deməkdir.

Müzakirələr zamanı bildirilib ki, hazırkı 20 ballıq limit peşəsi sürücülük olmayan və avtomobildən yalnız şəxsi məqsədlər üçün istifadə edən vətəndaşlarla peşəkar sürücülər arasında müəyyən mənada bərabərsiz vəziyyət yaradır. Çünki adi sürücülər alternativ nəqliyyat vasitələrindən istifadə etməklə gündəlik fəaliyyətlərini davam etdirə bildikləri halda, peşəkar sürücülər üçün sürücülük vəsiqəsinin müvəqqəti itirilməsi faktiki olaraq işsiz qalmaq anlamına gəlir.

Bu baxımdan təklif olunur ki, peşəkar sürücülər üçün sürücülük hüququndan məhrumetmə həddi 20 baldan 40 və ya 50 bala qədər artırılsın. Təklif müəlliflərinin fikrincə, belə bir dəyişiklik sürücülərin əmək fəaliyyətini qorumaqla yanaşı, sosial problemlərin də qarşısını ala bilər. Eyni zamanda, müzakirələrdə cərimə balı sisteminin tətbiq mexanizminin yenidən nəzərdən keçirilməsi məsələsi də gündəmə gətirilib. Səsləndirilən təkliflərdən biri bal sisteminin yalnız kobud və yol hərəkəti təhlükəsizliyi baxımından ciddi risk yaradan qayda pozuntularına tətbiq olunmasıdır.

Belə hesab edilir ki, kiçik və ilk dəfə törədilən pozuntular zamanı sürücülərin cərimə balı ilə deyil, yalnız maliyyə cəriməsi ilə məsuliyyətə cəlb olunması daha məqsədəuyğun ola bilər. Mövzu ilə bağlı müxtəlif yanaşmalar da mövcuddur. Bəzi ekspertlər hesab edirlər ki, peşəkar sürücülər daha çox sükan arxasında olduqları üçün onlar üçün müəyyən güzəştlərin tətbiqi sosial baxımdan əsaslandırılmış addım sayıla bilər. Digər tərəfdən, yol hərəkəti təhlükəsizliyi sahəsində çalışan mütəxəssislər cərimə balı limitinin artırılmasının sürücülərdə məsuliyyət hissini zəiflətməməsinin vacibliyini vurğulayırlar. Onların fikrincə, hər hansı dəyişiklik təhlükəsizlik amili nəzərə alınmaqla həyata keçirilməlidir.

■ **Mövzu ilə bağlı nəqliyyat eksperti Eldəniz Cəfərov hesab edir ki, cərimə balı sistemi ümumilikdə qorunub saxlanılmalıdır, lakin bəzi qayda pozuntularına görə bal tətbiqinin yenidən nəzərdən keçirilməsinə ehtiyac var.** Ekspertin sözlərinə görə, hazırkı qanunvericiliyə əsasən yol hərəkəti qaydalarını pozan sürücülər həm maliyyə cəriməsi, həm də müəyyən hallarda cərimə balı ilə üzləşirlər. Cərimə ballarının sayı 20-yə çatdıqda isə sürücünün nəqliyyat vasitəsini idarə etmək hüququ müvəqqəti olaraq məhdudlaşdırılır. Bununla belə, bəzi inzibati xətalar üzrə həm cərimənin, həm də balın tətbiqi məqsədəuyğun hesab edilmir. E.Cəfərov xüsusilə dayanma və durma qaydalarının pozulmasına görə tətbiq olunan cərimə ballarının

Bəzi qayda pozuntularına görə, bal tətbiqinin yenidən nəzərdən keçirilməsinə ehtiyac var

ləğv edilməsini təklif edir. Onun fikrincə, bu qayda pozuntusuna görə artıq 60 manat məbləğində cərimə nəzərdə tutulduğu üçün əlavə olaraq iki cərimə balının yazılması sürücülər üçün əlavə yük yaradır. Ekspert qeyd edib ki, şəhər mühitində sürücülər müxtəlif səbəblərdən dayanma-durma qaydalarını daha tez-tez pozmaq məcburiyyətində qala bilirlər.

Xüsusilə iri şəhərlərdə parklanma yerlərinin çatışmazlığı, nəqliyyat sıxlığı və yol infrastrukturunun bəzi çatışmazlıqları bu halların sayını artırır. Onun sözlərinə görə, hazırda müşahidə kameraları vasitəsilə dayanma-durma qaydalarının pozulmasına görə avtomatik qaydada cərimələr tətbiq edilir. Lakin sonradan aparılan araşdırmalar bəzi hallarda əsassız və ya mübahisəli cərimələrin də mövcud olduğunu ortaya çıxarır.

Bununla yanaşı, ekspert cərimə balı mexanizminin tamamilə ləğv edilməsinin tərəfdarı olmadığını vurğulayır. O hesab edir ki, cərimə balı sistemi yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayan çəkindirici vasitələrdən biridir. "Eyni qayda pozuntusunu dəfələrlə törədən sürücülərin qarşısının alınması üçün cərimə balı vacib mexanizmdir. Əks halda bəzi şəxslər yalnız maliyyə imkanlarına güvənərək dəfələrlə qaydaları poza bilərlər. Bal sistemi sürücüləri daha məsuliyyətli davranmağa sövq edir", - deyə ekspert bildirib.

E. Cəfərovun fikrincə, optimal variant cərimə balı sisteminin saxlanılması, lakin onun tətbiq dairəsinin yenidən müəyyənləşdirilməsidir. Belə ki, sürət həddinin ciddi şəkildə aşılması, sərxoş vəziyyətdə avtomobil idarə edilməsi, qarşı hərəkət zolağına çıxma kimi təhlükəli pozuntular üzrə bal sistemi qüvvədə qalmalı, dayanma-durma kimi nisbətən az təhlükə yaradan inzibati xətalarda isə yalnız maliyyə cəriməsi tətbiq olunmalıdır.

Ekspert hesab edir ki, bu yanaşma həm yol hərəkəti təhlükəsizliyinin qorunmasına, həm də sürücülərin üzləşdiyi bəzi narazılıqların aradan qaldırılmasına xidmət edə bilər. Bu baxımdan, Milli Məclisdə cərimə balı sisteminin təkmilləşdirilməsi ilə bağlı aparılan müzakirələrin aktuallığı daha da artır və gələcəkdə qanunvericiliyə müəyyən dəyişikliklərin edilməsi ehtimalını gündəmə gətirir.

✍ ***Sevinc***

# Təhsil seçimləri maraq və bacarıqlara əsaslanmalıdır

***Azərbaycanda uzun illərdir formalaşmış yanaşmaya görə, uşaqlar gələcək peşə seçimlərini maraq və bacarıqlarına deyil, toplaya biləcəkləri bala uyğun müəyyənləşdirirlər. Bu düşüncə tərzi dəyişmədiyi müddətdə təhsil sistemində arzulanan nəticələrə nail olmaq çətin olacaq.***

Fikirləri elm və təhsil naziri Emin Əmrullayev Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən hazırlanmış "Azərbaycanda yeniyetmələrin hüquq düşüncəsi" adlı tədqiqat hesabatının və "Uşaqlar və Hüquq" adlı kitabın təqdimat mərasimində çıxışı zamanı səsləndirib.

Onun sözlərinə görə, bu gün uşaqlardan tez-tez "balım çatsa həkim olacağam, çatmasa biologiya müəllimi, o da alınmasa aq-



ronom" kimi fikirlər eşidilir. "Təxminən otuz ildir davam edən bu yanaşma təhsil seçimlərini maraq və bacarıqlardan daha çox imtahan nəticələrinə bağlayır. Bütün diqqətini topladığı bala və gələcəkdə qəbul olacağı ixtisasa yönəltmiş uşaqlarda digər sahələrə maraq formalaşdırmaq asan olmur. Belə olan halda uşağa nə qədər hüquq təhsili versəniz də, onun marağını və motivasiyasını formalaşdırmaq çətinləşir. Buna görə də yanaşmanı dəyişməliyik. Bu, uşağın günahı deyil, cəmiyyətin onun üzərinə qoyduğu yükdür", – deyə nazir vurğulayıb. Emin Əmrullayev ibtidai təhsilin keyfiyyətinin artırılmasının xüsusi əhəmiyyət daşıdığını da diqqətə çatdırıb."İbtidai təhsil pilləsində tətbiq edilən yeni yanaşmalar gələcəkdə daha keyfiyyətli nəticələrin əldə olunmasına imkan verəcək. Bu gün keçirilən sertifikatlaşdırma imtahanları da məhz ibtidai təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir", – deyə Emin Əmrullayev bildirib.

# Ləzzətli ev dondurması necə hazırlanmalı?

***Dondurma ən məşhur yay desertlərindən biridir. Onu evdə hazırlamaq göründüyündən daha asandır. Xüsusi avadanlıq və ya kulinariya təcrübəsinə ehtiyacınız yoxdur. Evdə hazırlanan dondurma mağazadan alınan dondurmadan əsasən onun tərkib hissələrini tamamilə idarə edə bilməyinizlə fərqlənir. Dietoloq Yulianna Pliskinaya görə, bu deserti qida baxımından daha çevik edən budur. Sənaye dondurma istehsalında tez-tez yüksək şəkərli siroplar, ətirləndiricilər, rəngləndiricilər, stabilizatorlar və bitki yağları istifadə olunur ki, bu da məhsulun teksturasını və raf ömrünü yaxşılaşdırır.***



## Kulinariya

Evdə hazırlanan dondurma lazımsız inqrediyentlərdən qaçınmağa və inqrediyentləri mümkün qədər sadə və aydın saxlamağa imkan verir. Bundan əlavə, fərdi pəhriz planınıza və şəxsi dad seçimlərinizə uyğunlaşdırıla bilər.

Evdə hazırlanan dondurma sizə aşağıdakıları etməyə imkan verir:

** şəkər miqdarını tənzimləmək;*

** məhsulun yağ tərkibini seçmək;*

** mövsümi giləmeyvə və meyvələrdən istifadə;*

** dadlarla təcrübə;*

** uşaqlar və xüsusi pəhriz ehtiyacları olan insanlar üçün desertlər hazırlamaq.*

Tələb olunan mətbəx avadanlığı: qab, çırpıcı və ya qarışdırıcı, qalın dibli qazan və dondurucuya davamlı qab. Dondurma hazırlayıcısı prosesi sadələşdirə bilər, lakin tələb olunmur.

Dondurmahazırlayıcısı varsa, bu cihaz qarışığı eyni vaxtda soyudur və daim qarışdırır, nəticədə daha yumşaq və hamar dondurma əldə edilir və buz kristallarının əmələ gəlməsi riski azalır. İstifadədən əvvəl istehsalçının təlimatlarını diqqətlə oxumaq vacibdir. Əksər məişət modelləri qabın 12-24 saat dondurulmasını tələb edir.

Soyudulmuş dondurma əsasını qaba tökün və cihazı işə salın. Modeldən asılı olaraq, proses 20-40 dəqiqə çəkir. Bundan sonra desert yumşaq dondurmaya bənzəyir, onu dərhal yeyə və ya daha möhkəm tekstura üçün qabda 2-4 saat dondura bilərsiniz.

Demək olar ki, bütün məşhur reseptlər klassik dondurmadan meyvə sorbetlərinə qədər dondurma hazırlayan maşın üçün uyğundur.

Dondurmahazırlayan maşınınız yoxdursa, oxşar nəticəni əl ilə əldə edə bilərsiniz. Bunu etmək üçün qarışığı dondurucuya qoyun və hər 30-40 dəqiqədən bir çəngəl, çırpıcı və ya qarışdırıcı ilə yaxşıca qarışdırın. Bu proses adətən dondurmanın ilk 3-4 saatı ərzində təkrarlanır.

Qaymaq və qatılaşdırılmış süddən hazırlanmış ən sadə resept heç də daimi qarışdırma tələb etmir. Qaymağın yüksək yağ tərkibi və qatılaşdırılmış südün qalın konsistensiyası sayəsində dondurma xüsusi avadanlıq olmadan belə olduqca yumşaq olur.

Geniş, dayaz qablardan istifadə etmək ən yaxşısıdır: onlar qarışığın daha bərabər dondurulmasına imkan verir. Desertin dondurucudan gələn qoxuları udmasının qarşısını almaq üçün qabı qapaq və ya qida plyonkası ilə örtmək də vacibdir.

Asan reseptlərdən başlamaq ən yaxşısıdır. Ən populyar variantlardan biri yalnız iki inqrediyent tələb edir.

**Tərkibi:**

** 33-35% qatı qaymaq - 500 ml;*

** 380 q qatılaşdırılmış süd (1 banka).*

**Hazırlanması:**

**1. Qatı qaymağı soyuducuda ən azı 4 saat soyudun.**

**2. Yumşaq zirvələr əmələ gələnə qədər mikserlə çalın.**

**3. Qatılaşdırılmış südü əlavə edin və hamar olana qədər spatula ilə yavaşca qarışdırın.**

**4. Qarışığı qapaqlı bir qaba köçürün.**

**5. Tam bərkiyənə qədər 5-6 saat dondurun.**

**Evdə hazırlanmış dondurmaya nə əlavə etmək olar?**

*• vanil və ya vanil ekstraktı;*

*• şokolad parçaları;*

*• kakao tozu;*

*• təzə giləmeyvələr;*

*• banan;*

*• doğranmış qoz-fındıq;*

*• karamel sousu;*

*• hindistan cevizi lopaları.*

Lakin, qida baxımından bu desert o qədər də yüngül deyil.

"Qaymaq doymuş yağ mənbəyidir və qatılaşdırılmış süddə xeyli miqdarda şəkər var. Buna görə də, bu dondurma əsasən desert kimi qəbul edilməlidir. Porsiyaların ölçüsünə nəzarət etmək və hətta evdə hazırlanmış şirniyyatların belə balanslı pəhrizin bir hissəsi olaraq qalmasını unutmamaq vacibdir", - deyə Pliskina qeyd edib. Klassik Plombir - ən zəngin, qaymaqlı dad istəyənlər krem ??əsaslı dondurma hazırlamalıdırlar.

**Tərkibi:**

** 33-35% qaymaq - 500 ml;*

** süd - 250 ml;*

** yumurta sarısı - 4 ədəd;*

** şəkər - 120 q;*

** vanil ekstraktı - 1 çay qaşığı.*

**Hazırlanması:**

**1. Südü və qaymağı bir qazanda qızdırın, amma qaynatmayın.**

**2. Sarılarını yüngül və tüklü olana qədər şəkərlə çalın. 3. İsti süd qarışığını tədricən sarılarına tökün, daim qarışdırın.**

**4. Qarışığı qazana qaytarın və bir az qatılaşana qədər vam odda bişirin.**

**5. Ələkdən süzün və tamamilə soyudun.**

**6. Vanili əlavə edin və qarışığı ən azı 4 saat soyuducuda saxlayın.**

**7. Bir qaba tökün və dondurucuya qoyun.**

**8. Qarışığı ilk 3-4 saat ərzində hər 30-40 dəqiqədən bir qarışdırın.**

**9. Tam bərkidikdən sonra, dondurmanı süfrəyə verməzdən əvvəl 5 dəqiqə otaq temperaturunda saxlayın.**

Pəhrizlərini izləyənlər və ya yeməklərində şəkər miqdarını azaltmaq istəyənlər üçün diyetoloq alternativ reseptləri nəzərdən keçirməyi tövsiyə edir.

"Ev istehsalı dondurmanın kalorisini azaltmaq üçün qaymağın bir hissəsi əvəzinə yunan qatığı, kefir, rikotta və ya yumşaq kəsmik istifadə edə bilərsiniz. Şirinlik üçün banan, çiyələk, moruq, manqo və digər meyvələr əladır. Giləmeyvələrin əlavə bir faydası onların yüksək antioksidant və pəhriz lif tərkiblidir", Yulianna Pliskina izah edir.

Ən asan sağlam evdə hazırlanmış desert seçimlərindən biri şəkər əlavə edilməmiş banan dondurmasıdır.

**Tərkibi:**

** 2-3 dondurulmuş banan;*

** 30-45 ml badam və ya digər şəkərsiz bitki mənşəli süd;*

** vanil ekstraktı - istəyə bağlıdır.*

**Təlimatlar:**

1. Dondurulmuş bananları blenderdə püre halına salın, bitki mənşəli südü əlavə edin və qaymaqlı olana qədər qarışdırın. 2. Deserti dərhal yumşaq dondurma kimi verin və ya daha möhkəm tekstura üçün 2-3 saat dondurucuda saxlayın.

Təzə giləmeyvələr, çia toxumları, qoz-fındıq və ya bir neçə parça tünd şokolad hamısı yaxşı bəzəklərdir.

Əsas reseptə yiyələndikdən sonra dadlarla təcrübə edə bilərsiniz. Dondurmadan əvvəl əksər içliklər hazırlanmış krem ??bazasına əlavə olunur. Giləmeyvə, şokolad və qoz dadları evdə xüsusilə populyardır.

Çiyələk. Dondurmadan əvvəl krem ??bazasına 250-300 q təzə çiyələk püresi əlavə edin. Daha zəngin dad üçün yüngül qaynadılmış giləmeyvə püresi istifadə edin.

Şokolad. 100 q əridilmiş tünd şokolad və ya 2-3 xörək qaşığı kakao tozu əlavə edin.

Qatıq. Qaymağın bir hissəsini adi yunan qatığı ilə əvəz edin və zövqə görə giləmeyvə əlavə edin.

Püstə. Əsasını 100 q doğranmış püstə və ya 2-3 xörək qaşığı püstə pastası ilə qarışdırın.

Manqo. Qarışığa 2 yetişmiş manqonun püresini əlavə edin. Bu dondurma xüsusilə dadlı və şirindir.

Hindistan cevizi. Qaymaq əvəzinə hindistan cevizi südü istifadə edin və tekstura üçün hindistan cevizi lopaları əlavə edin.

Limon sorbeti. 3 limonun suyunu, 150 ml su və 100 q şəkəri qarışdırın, sonra qarışığı ara sıra qarışdıraraq dondurun.

Ticarət dondurmasından fərqli olaraq, evdə hazırlanmış dondurmanın tərkibində konservantlar yoxdur, ona görə də raf ömrü daha qısadır.

Dondurucuda optimal raf ömrü biriki həftədir. Daha uzun müddət saxlanılarsa, desert dadını itirməyə başlayacaq və tərkibində böyük buz kristalları əmələ gələcək.

Əgər dondurmanın tərkibində təzə giləmeyvələr, meyvələr və ya emal olunmamış süd məhsulları varsa, onu hazırladıqdan sonra bir neçə gün ərzində yemək ən yaxşısıdır. Süfrəyə verməzdən 5-10 dəqiqə əvvəl desertdən çıxara bilərsiniz. Bu, onun yumşalmasına və dadı və ətrinin daha aydın olmasına imkan verəcək.

Əsas qaydalara əməl etməsəniz, hətta sadə bir resept belə uğursuz ola bilər.

*Ən çox rast gəlinən səhvlər bunlardır:*

** az yağlı qaymaqdan istifadə etmək;*

** əsasını kifayət qədər soyutmamaq;*

** qarışdırmadan çox tez dondurmaq;*

** qarışıqda çoxlu meyvə suyu;*

** hava keçirməyən qabda saxlamaq.*

Bu, desertdə böyük buz kristallarının əmələ gəlməsinə və nəticədə qırıntılı və sulu bir teksturaya səbəb ola bilər.

***✍ Ləman Əliyeva***

## HƏFTƏ REYTİNQ

### Həftənin SƏHVİ



Müğənni Mərdan Kazımov toy məclisinin zalını səhv salaraq başqa bir toyda iştirak edib. O, bu barədə instaqram hesabında paylaşım edib. M.Kazımovun sözlərinə görə, yarım saat müddətində başqa şəxslərin toyunda çıxış edib, lakin toy sahibləri onun məclisə dəvət olunmadığını bildirməyiblər: "Bu gün toy zallarını səhv salıb iki dostumuzun məclisində çıxış etdik. Sağ olsunlar, yarım saat heç deyən olmadı ki, "Biz sizi dəvət etməmişik, axı".

### Həftənin QARŞILANMASI



2026-cı il Dünya Çempionatına ev sahibliyi etməyə hazırlaşan ABŞ turnirdən əvvəl beynəlxalq futbol komandalarının qarşılanması ilə bağlı qalmaqallı addımla gündəmə gəlib. Nyu-Yorkda hazırlıq oyunları üçün ölkəyə gələn Özbəkistan milli komandası avtobusdan düşən kimi ciddi təhlükəsizlik yoxlamasına məruz qalıb. Futbolçular metal detektorlardan keçirilərək, xüsusi təlim keçmiş narkotik itləri ilə axtarılıb.

### Həftənin PAYLAŞIMI



Portuqaliya millisinin ulduzu Kriştianu Ronaldo "Barselona"nın sabiq üzvü Kevin-Prins Boatenqin açıqlamasında qoyduğu gülüş işarəsi ilə gündəm olub. Kriştianu Ronaldo fanatı olan Botaenq bunları deyib: "Mən uşaqlıqdan Ronaldo azarkeşiyəm. Amma "Barselona"ya transfer olunanda bu klubun və Messinin azarkeşi olduğumu dedim. Çünki bildirmişdilər ki, elə deməsən, sənə çətinlik yarana bilər". Ronaldo isə həmin paylaşımlardan birinin altına gülüş işarəsi ataraq diqqət mərkəzinə düşüb.

### Həftənin GÖRÜŞÜ



Ukrayna Prezidenti Volodimir Zelenski rusiyalı iş adamı Roman Abramoviçlə görüşün bəzi detallarını açıqlayıb. Bu barədə Ukrayna lideri "The Guardian" qəzetinə müsahibəsində danışıb. Bildirilir ki, Abramoviçlə görüş zamanı Zelenski Kiyevin heç vaxt Donbasdan imtina etməyəcəyini bəyan edib. Nəşrin yazdığına görə, görüş may ayında Kiyevdə baş tutub. Bunun üçün Abramoviç gizlicə Kiyevə səfər edib.

### Həftənin RÜSUMU



ABŞ Dövlət Departamentinin müəyyən səfirlik və konsulluqlarda işgüzar və turist vizası müraciətləri üçün yeni pilot proqram üzərində çalışdığı bildirilir. Bu barədə "Associated Press" (AP) əldə etdiyi sənədlərə və ABŞ rəsmisinin açıqlamasına istinadən məlumat yayıb. Bildirilir ki, yeni sistem çərçivəsində müraciət edənlər əlavə 750 dollar ödəməklə daha sürətli görüş tarixi əldə edə biləcəklər. Proqramdan istifadə edən şəxslər 10 gün ərzində sürətləndirilmiş viza görüşünə yazıla biləcəklər.

### Həftənin HƏBSİ



Moskvanın Meşşanski Rayon Məhkəməsi YUKOS neft şirkətinin keçmiş rəhbəri Mixail Xodorkovskini 10 il müddətinə qiyabi olaraq azadlıqdan məhrum edib. O, Rusiya Silahlı Qüvvələri haqqında saxta məlumatlar yaymaqda təqsirli bilinib. Xodorkovski həmçinin 5 il müddətinə saytları və kanalları idarəetmə hüququndan da məhrum olunub.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**Məşhur müğənni Çelik zibil qabından kağız yığır**

## Uşaqların rəqəmsal təhlükəsizliyi

**Elnarə Akimova,**
millət vəkili

16 yaşdan aşağı şəxslərin müəyyən platformalarda fərdi rəqəmsal hesab yaratmasının məhdudlaşdırılması nəzərdə tutulur.

▸▸ Səh. 6

## STATİSTİKA




**■ İyunun 1-nə Azərbaycanda aktiv vergiödəyicilərinin sayı ilin əvvəli ilə müqayisədə 2,7 faiz artaraq 882 min 906, aktiv ƏDV ödəyicilərinin sayı isə 4,2 faiz artaraq 60 min 847 təşkil edib.**

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən (DVX) bildirilib ki, həmin tarixə aktiv təsərrüfat subyektlərinin (obyektlərinin) sayı 3,9 faiz artaraq 241 min 842 olub.




▸▸ Səh. 7

## Sürücülərə şad xəbər - limit artırılır